RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 75 (8391) ÇƏRŞƏNBƏ AXŞAMI, 21 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan elektrik enerjisinin əlçatanlıq indeksinə görə dünyada ikinci yerdədir

## İlham ƏLİYEV: “Bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır”

Aprelin 20-də Bakıda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksi açılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Qeyd edək ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar həyata keçirilir. İcra olunan layihələrin nəticəsində strateji əhəmiyyət kəsb edən sahələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər də miqyası və əhəmiyyəti ilə seçilir. Respublikanın enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması baxımından həyata keçirilən tədbirlər isə ardıcıl və kompleks şəkildə davam etdirilir. “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin müasir səviyyədə yenidən qurulması da bunun bariz nümunəsidir. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir və bunun nəticəsində hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, 1986-cı ildə istifadəyə verilən və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşən bina əsaslı təmir olunaraq, müasir memarlıq üslubunda, yüksək səviyyədə yenidən qurulub. Ətrafda abadlıq işləri görülüb, yaşıllıq sahələri salınıb.

Dövlət başçısına binada fəaliyyət göstərəcək Baş İdarəetmə Mərkəzi barədə məlumat verildi. Bu mərkəz vasitəsilə enerjisistemin avtomatik idarəedilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi nəzərdə tutulur. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən həyata keçirilir. Hazırda burada müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi qurulur. Yeni sistem əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 80 yarımstansiyanı əhatə edəcək. Yeni SCADA layihəsinin ilin sonunda tam başa çatdırılması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, on ədəd nəzəri və praktik trenajor zalının yaradıldığı kompleksin tədris mərkəzində enerji sistemində çalışan şəxslərə yeni texnika və texnologiyanın öyrədilməsi və onların idarə edilməsi tədris olunacaq. Bu məqsədlə nəzəri və praktiki məşğələlərin tədrisi üçün sinif otaqları təşkil edilib. Burada stansiya və yarımstansiyaların simulyasiyası, rele mühafizəsi və avtomatika, alternativ və bərpa olunan enerji mənbələri, informasiya texnologiyaları, elektrik təhlükəsizliyi və digər aidiyyəti otaqlar yaradılıb.

Binada ilk dəfə olaraq müasir avadanlıqla təchiz edilən 500 nəfərlik Energetiklərin Mədəniyyət Mərkəzi yaradılıb. Burada ölkəmizin həyatında baş verən əlamətdar hadisələri, eyni zamanda energetiklərin fəaliyyəti ilə bağlı təşkil olunan tədbirləri yüksək səviyyədə keçirmək mümkün olacaq.

Yenidənqurmadan sonra “Azərenerji” ASC-nin mərkəzi aparatı bu binaya köçürülüb. Əməkdaşların fəaliyyəti üçün bütün zəruri avadanlıqla təchiz edilən iş, toplantı, arxiv otaqları, 165 nəfərlik yeməkxana yaradılıb. Elektron kitabxana və istirahət guşələri də işçilərin ixtiyarına veriləcək. Bundan başqa, burada Azərbaycan Energetika İnstitutu da fəaliyyət göstərir.

Prezident İlham Əliyevə “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Baş İdarə binasının yenidənqurma layihəsi barədə də məlumat verildi.

Kompleksin yeni Laboratoriya Mərkəzi müasir səviyyədə qurulub. Burada müxtəlif növ sınaqların aparılması üçün bütün imkanlar mövcuddur. Ən son model avadanlıqla təchiz olunan laboratoriyalarda geotexnika, geodeziya, inşaat, kimya, metalların və inşaat materiallarının sınağını və digər laborator işləri görmək və onları sertifikatlaşdırmaq mümkün olacaq. Bu isə, öz növbəsində, enerjisistemin uzunmüddətli istismarını təmin edəcək. Qeyd edək ki, bu cür laboratoriyalar ölkədə ilk dəfə yaradılıb.

Kompleksin binasında tibbi maskaların istehsalı üçün xüsusi otaq da ayrılıb, zəruri avadanlıq quraşdırılıb. Burada İdman, Sağlamlıq və Tibb Kompleksi də müasir səviyyədə qurulub. Kompleksdə əməkdaşların idmanla məşğul olması üçün geniş imkanlar var.

Sonra Prezident İlham Əliyev “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

Ardı 2-ci səh.

## Əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb



Aprelin 20-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Ramazan ayının gəlişi münasibətilə bir-birlərini təbrik edib və ən xoş arzularını xalqlarımıza çatdırmağı xahiş ediblər.

Dövlət başçıları ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildiriblər.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkələrimizdə həyata keçirilən tədbirlər və görüləcək işlərlə bağlı məsələlər müzakirə edilib. Eyni zamanda pandemiya dövründə ölkələrimiz arasında tranzit-nəqliyyat sahəsində əməkdaşlıqdan, eləcə də yükdaşımaları, o cümlədən “Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi” üzrə daşımaların davam etdirilməsindən məmnunluq ifadə edilib, bu istiqamətlərdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın xristian icmasını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva “Facebook” səhifəsində respublikamızın xristian icmasını Pasxa bayramı münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir:

“Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Bu əziz gündə vətəndaşlarımızın sağlamlığı, xoşbəxt gələcəyi, ölkəmizin əmin-amanlığı naminə dualar edilir. Bütün bu dua və diləklərə qoşularaq əmin olduğumu bildirirəm ki, biz bu gün üzləşdiyimiz çətinliklərin öhdəsindən xalqımızın həmrəyliyi, əzmi və iradəsi sayəsində uğurla gələcəyik! Uca Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram!”

## Prezidentdən xalqa növbəti möhtəşəm dəstək

### İlham Əliyev qlobal pandemiya dövrü üçün təqdim etdiyi genişmiqyaslı iqtisadi və sosial paketin maliyyə həcmini 3,5 milyard manatadək artırır

Dünya dövlətlərinin koronavirus pandemiyası ilə mübarizəsi davam edir. Hətta ən çox inkişaf etmiş ölkələr belə yaranmış çətinliklər qarşısında aciz qalıblar. Bəzi ölkələrdə ölüm və yoluxma faktları artsa da, qabaqlayıcı tədbirlər görən dövlətlərdə müsbət dinamikanın ilk təzahürləri özünü göstərir. Sevindirici haldır ki, Azərbaycan da bu ölkələr sırasındadır.

Ölkədə artıq koronavirusdan sağalanların sayının yoluxanların sayından çox olması onu göstərir ki, görülən qabaqlayıcı tədbirlər effektiv nəticələrini verir. Ancaq buna baxmayaraq, hökumət daha müsbət dinamikanın əldə edilməsi üçün aprelin 20-dək elan edilən karantin rejiminin müddətini daha 2 həftə uzatdı.

Prezident İlham Əliyev karantin rejiminin uzadılması təklifini dəyərləndirərək müsbət dinamikanın dayanıqlı olması üçün vaxtın uzadılmasını yeganə düzgün qərar adlandırdı.

### Karantin rejimi - 1 milyona yaxın insan işləmir, amma dövlət maaşlarını verir

Hələ karantin rejiminin tətbiqindən öncə ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar olaraq böyük iqtisadi-sosial paketini təqdim edən Prezident İlham Əliyev bir daha humanist siyasətinə sadiqliyini göstərdi. Dövlət başçısının təşəbbüsü ilə hazırlanan dəstək proqramlarına əsasən karantin dövründə işsiz qalan insanların sosial durumunun yaxşılaşdırılması, muzdla işləyənlərin əməkhaqlarının dövlət tərəfindən ödənilməsi həyata keçirildi.

Ardı 5-ci səh.

◆ Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



## «Siz bu çətin günlərdə xalqımıza böyük dayaqsınız»

Azərbaycanda koronavirusla mübarizədə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verməkdədir. Başqa bir mühüm məqam ondan ibarətdir ki, respublikamızda karantin günlərində digər çətinliklərin yaranmasına yol verilmədi. Ərzaq təminatı, xüsusən aztəminatlı və işsiz vətəndaşların sosial rifahı kimi məsələlər diqqət mərkəzində saxlanıldı. Ona görə də ölkəmizdə son iki ayda keçirilən bütün sosial tədbirlər, ən əsası bu istiqamətdə Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, dövlət orqanlarına verdiyi göstəriş və tapşırıqlar ictimaiyyət tərəfindən böyük razılıqla qarşılanır. Bu günlərdə İlham Əliyevin ünvanına gələn təşəkkür məktublarının ardı-arası kəsilmir.

Ardı 3-cü səh.

## Dövlət başçısı koronavirusla mübarizədə dünyaya örnək olan mövqe nümayiş etdirir

Əksər ölkələr gözlənilmədən bəşəriyyətin üzərinə yeriyən koronavirus adlı kabusun qarşısında aciz qalmışlar. Bu səbəbdən sərhədlər, limanlar və yollar bağlansa da, təyyarələr qalxmasa da, qatarlar şütüməsə də xəbərlər ildırım sürəti ilə sərhədləri aşır, ən ucqar nöqtəyə belə gedib çatır. Hamı nəyin baş verdiyini və pandemiyanın qarşısının necə və nə vaxt alınacağını düşünür. Bəşəriyyətin sınağa çəkildiyi belə bir məqamda xəbər hər şeydən qiymətli olur. Hər bir kəs məlumatları izləyir və hansı dövlətin daha düzgün qərar verdiyini, daha səlis addım atdığını özlüyündə aydınlaşdırmağa cəhd edir.

Bu baxımdan Prezident İlham Əliyevin qətiyyətli və operativ olması, kreativ lider kimi ən mürəkkəb hadisələri yüksək peşəkarlıqla idarə etməsi, qarşısına çıxan maneələri sürətlə keçməsi, düzgün qərarlar verməsi və bütün ölkənin aqibəti ilə yanaşı, hər bir vətəndaşın da qayğılarını eyni həssaslıqla düşünməsi onun nüfuzunu dünya miqyasında artırır. Dövlət başçısının mübarizliyi və müdrik lider keyfiyyətləri yüz minlərlə insanın rəğbətinə səbəb olur.

Əslində İlham Əliyev bir neçə gün əvvəl bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfransla kifayətlənə bilərdi. Çünki bütün məsələlərə münasibət bildirmişdi və həm sosial, həm iqtisadi sahələrdə prioritetləri təyin etmiş və vacib tapşırıqlarını vermişdi. Buna baxmayaraq Prezident həmin videokonfransdan bir neçə gün sonra Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirmək qərarına gəlmişdir. Bu tədbirdə Prezident videokonfransda dedikləri fikirləri təkrar etmədən daha yeni və daha qətiyyətli mövqe nümayiş etdirmiş, bütün dövlətin və hər bir vətəndaşın qayğılarını çiyninə götürmək əzmində olduğunu bir daha hamının diqqətinə çatdırmışdır.

Ardı 5-ci səh.

▪ Özünü, doğmalarını və dostlarını qorumaq:
▪ Koronavirusa qalib gəlmək üçün
EVDƏ QAL!
Biz birlikdə güclüyük!

# Azərbaycan elektrik enerjisinin əlçatanlıq indeksinə görə dünyada ikinci yerdədir

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

- "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə mərkəzinin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Şadam ki, bu gözəl binada "Azərenerji"nin bir çox qurumları yerləşir. Dispetçer mərkəzi, Baş idarəetmə mərkəzi, Energetika İnstitutu, tədris mərkəzi, laboratoriya, Energetiklərin Mədəniyyət Mərkəzi. Hesab edirəm ki, indi burada şərait çox yaxşıdır. Bu binada qısa müddət ərzində əsaslı yenidənqurma işləri aparılmışdır. Demək olar ki, bina yenidən qurulmuşdur və indi bir yerdə, bir mərkəzdə "Azərenerji"nin əsas departamentləri yerləşir və beləliklə, idarəetmə üçün daha da gözəl imkan yaranır. Çünki bundan əvvəl "Azərenerji"nin departamentləri, qurumları müxtəlif yerlərdə yerləşirdi, bəzi hallarda yarımstansiyaların binalarında yerləşirdi və əlbəttə ki, idarəetmə üçün bu, o qədər də məqbul hal deyildi.

Bu bina sovet dövründə tikilib. Bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılmışdı, "Azərenerji"nin balansından çıxarılmışdı. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu, dərhal "Azərenerji"nin balansına qaytarılsın. Çünki əks-təqdirdə bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 min kvadratmetr idi, indi isə artırılıb 20 min kvadratmetrə çatdırılıb. Yəni burada ya hansısa bir mehmanxana, yaxud şadlıq evi, yaşayış binası, ya da ki, hansısa bir ictimai iaşə obyekti yaradılacaqdı və energetiklər bu binadan məhrum olacaqdılar.

Bu bina energetiklərə qaytarılandan sonra, 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə Regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni böyük qıtlıq var idi. O ki qaldı Azərbaycanın bölgələrinə, orada, ümumiyyətlə, dayanıqlı enerji təminatı nədir, insanlar bilmirdilər. Ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işlərə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir.














Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir - "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansiyası, 525 meqavat. "Şimal 2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda orada ixrac potensialı da yaranmışdır. O cümlədən bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə ki, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük hissəsi büdcənin hesabına təmin edildi, digər hissə götürülmüş kreditlər hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilib. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Yüksəkgərginlikli xətlər, bizi qonşu dövlətlərlə birləşdirən xətlər inşa edildi, bir çox yerlərdə yeni yarımstansiyalar tikildi, transformatorlar quraşdırıldı. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji ilə təminat necədir? Son illər ərzində hər zaman müsbət rəylər eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər.

Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda "Azərenerji" son iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə "Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var. İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək, görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarıb ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, forumun hesabatında da elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq sadəcə olaraq bir ölkə var. Yəni bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. Skada sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı burdadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, - baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə bütün ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır.

Bir daha sizi ürəkdən təbrik edirəm və sizə, bütün Azərbaycan energetiklərinə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

"Azərenerji" ASC-nin Enerji İstehsalı İdarəsinin gənc mühəndisi **Aytac SÜLEYMANOVA** dedi: Möhtərəm cənab Prezident, koronavirus pandemiyasının yayıldığı bir zamanda bu açılışa gəlməyiniz Ali Baş Komandan kimi biz energetiklərə, Sizin əsgərlərinizə stimul verməklə yanaşı, həmçinin məsuliyyətimizi daha da artırır. Bundan əlavə, Sizin tapşırığınızla 2018-ci ildə energetiklərin balansına geri qaytarılan bu binanın yenidən qurularaq tam istifadəyə verilməsi olduqca əlamətdar hadisədir. Çünki Azərbaycan energetiklərinin bugünkü zamana qədər hazırkı şəraitdə ən yüksək müasir texnoloji avadanlıqlarla təchiz edilmiş dispetçer idarəetmə sistemi, laboratoriya, təlim-tədris və mədəniyyəti mərkəzlərindən ibarət kompleksi olmayıb. Bütün bunlar bu sahədə çalışan, fəaliyyət göstərən peşəkar mütəxəssislərlə, energetiklərlə yanaşı, həmçinin biz gənc mütəxəssislərə də verilən böyük töhfə və stimuldur.

Sizi əmin edirik ki, yaradılan bu imkanlardan tam səmərəli istifadə etməklə elmi-texniki potensialı kadr potensialına çevirməyə çalışacağıq. Bütün bunlara və pandemiyanın geniş yayıldığı bu günlərdə biz də daxil olmaqla ölkənin bütün vətəndaşlarına göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı bildiririk.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

"Azərenerji" ASC-nin Texniki İstehsalat İdarəsinin gənc mühəndisi **Muxtar MAHMUDOV** dedi: Hörmətli cənab Prezident, Sizin elektroenergetika strategiyanıza uyğun olaraq həyata keçirilən islahat, inkişaf və tərəqqi mərhələləri bu gün də uğurla davam etdirilir. Baxmayaraq ki, karantin vəziyyətidir, "Azərenerji" ASC həyati əhəmiyyətli dövlət müəssisəsi kimi 24 saat fasiləsiz fəaliyyət göstərir, bu çətin günlərdə qabaqlayıcı tədbirlərin icrası ilə öz işini görür. Biz insanlara "Evdə qal" deyiriksə, onları fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək borcumuzdur. Sizin xüsusi diqqətiniz və enerji strategiyanız sayəsində enerji sistemində yenidənqurma, təmir-bərpa işləri bu gün də uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, xüsusi diqqət və qayğı göstərərək gəlişinizlə biz energetiklərə böyük ruh, fərəh verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün energetiklər adından Sizə bir daha söz veririk ki, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchizatı daim təmin ediləcək, evlərimizdə gur işıqlar yanacaq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm. Sağ olun.

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# «Siz bu çətin günlərdə xalqımıza böyük dayaqsınız»

## Azərbaycan ictimaiyyəti vətəndaşların sağlamlığına və sosial rifahına göstərdiyi yüksək diqqət və qayğıya görə İlham Əliyevə təşəkkürünü bildirir

*Əvvəli 1-ci səh.*



Ağcabədi rayonunda məskunlaşan Laçın rayonundan olan məcburi köçkün **Məhərrəm Dünyamalıyev** məktubunda əmin olduğunu bildirir ki, xalqımız bu bəladan tezliklə və az itkilərlə xilas olacaqdır: “Siz bu çətin günlərdə xalqımıza böyük dayaqsınız. Biz sadə vətəndaşlar isə daim Sizinləyik. Hər birimizin sağlamlığı naminə gördüyünüz işlərə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm”. Məhərrəm Dünyamalıyev daha sonra yazır: “Biz - məcburi köçkünlər həmişə olduğu kimi, bu çətin günlərdə də kimin kim olduğunu yaxşı görür, müxalifətin pozucu əməllərini və qarayaxmalarını qətiyyətlə pisləyirik. Varlığımız qədər əminəm ki, Sizin rəhbərliyinizlə xalqımız hələ çox uğurlara imza atacaqdır. Sizə bu şərəfli fəaliyyətinizdə cansağlığı və nailiyyətlər arzulayıram”.

Goranboy rayonunun Tatarlı kənd sakini, Milli Qəhrəman anası **Gülzar Ocaqverdiyeva** dünyanı çənginə alan bəladan Azərbaycanı qoruduğuna, hər bir vətəndaşın probleminə həssas yanaşdığına, aztəminatlı və imtiyazlı ailələrə diqqət və qayğıya görə Prezidentə minnətdarlığını bildirməyi özünə borc hesab edərək yazır: “Mən Milli Qəhrəman anası olaraq Sizin ölkəmizin tərəqqisi naminə nümayiş etdirdiyiniz fədakarlığınıza heyranam. Xalqımız Sizə və Sizinlə birlikdə ölkəmizin taleyini çiyinləri üzərinə götürmüş Mehriban xanıma həmişə minnətdar olacaqdır. Nə yaxşı ki, Siz varsınız. Uca Tanrı Sizi qorusun!”

**Valeh Salehov** İsmayıllı Rayon Ağsaqqallar Şurasının sədridir. O, məktubunda dövlət başçısına xitabən bildirir ki, Sizin milli köklər üzərində bərqərar olan rəhbərliyiniz sayəsində dövlət bizim hər bir qayğımızı çəkir: “Həyat fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, pandemiyaya qarşı mübarizədə də Azərbaycanı çox ölkələrdən fərqləndirən Sizin müdrik rəhbərliyiniz, xalqımıza tükənməz sevginiz, ölkəmizin taleyi üçün hamıdan çox məsuliyyət daşımağınızdır. Ölkə iqtisadiyyatının bu acınacaqlı vəziyyətdən minimum itki ilə çıxması üçün Siz ən səmərəli tədbirləri həyata keçirməklə yanaşı, həm də mövcud resursları insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldirsiniz. Fəxr edir, qürur duyur və bu çətin anlarda sevinirik ki, rəhbəri olduğunuz və əbədi müstəqilliyə çatmış Azərbaycanın vətəndaşlarıyıq. Pənah Allaha, ümid dövlətimizə və Prezidentimizədir”.

Pirallahı Rayon Ağsaqqallar Şurasının sədri **Fazil Məhəmmədov** da Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb. Məktubda deyilir: “Xalqımızın bütün dünyanı bürümüş koronavirus infeksiyasından qorunması məqsədi ilə qəbul etdiyiniz qərarlar və həyata keçirdiyiniz məqsədyönlü tədbirlər ölkəmizin hər yerində olduğu kimi, Pirallahı rayonunda da sakinlər tərəfindən, o cümlədən yaşlı nəslin nümayəndələri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Sizin bununla əlaqədar xalqa müraciətinizdə etdiyiniz “Biz birlikdə güclüyük!” çağırışınız bütün kateqoriyadan olan insanları bir araya gətirdi. Vətənini, millətini sevən hər bir azərbaycanlı Sizi örnək götürərək, bu çətin məqamda maddi və mənəvi dəstəyə ehtiyacı olan ailələrə yardım edir. Yaşı 65-dən yuxarı olan tənha insanlara sosial xidmətlərin göstərilməsi ilə bağlı müvafiq tapşırıqlarınız bizim heç də tənha olmadığımızı, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduğumuzu nümayiş etdirdi”.

Bakının Qaradağ rayonundan yazan **Xəyalə Qurbanova** isə gəncləri təmsil edir. Gənc nəslin nümayəndəsi kimi bu məktubu böyük qürur hissi ilə yazan Xəyalə Qurbanova bildirir ki, Prezidentin fəaliyyətini bütün xalqı yüksək qiymətləndirir: “Hələ koronavirus infeksiyasının dünyanı bürüməmiyi vaxtdan ölkəmizdə Sizin tərəfinizdən çox ciddi, davamlı və təsirli tədbirlər həyata keçirildi. Azərbaycan dövlətinin atdığı addımlar dünyanın bir çox inkişaf etmiş ölkələri üçün nümunə oldu. Ölkəmizdə koronavirus pandemiyasına qarşı səmərəli tədbirlər görülərək qısa müddət ərzində maska istehsal edən müəssisə yaradıldı, “Yeni klinika” tibb müəssisəsi istifadəyə verildi, karantinə alınan insanlar ölkəmizin ən rahat və müasir otellərində yerləşdirildi. Azərbaycan xalqı Sizin bütün qərarlarınızla həmrəydir. Hamımız inanırıq ki, bu qərarlar bizi bu bəladan minimum zərərlə qurtaracaq. Sizə təşəkkür edirik, cənab Prezident!”

Bakı şəhəri, Suraxanı rayonundan yazan **Abdulla Hüseynov** sahibkar fəaliyyəti ilə məşğuldur. “Sizin COVID-19 pandemiyasının makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncamınız ölkəmizdəki bütün iş adamlarının və sahibkarların rəğbətinə səbəb olub”, - deyə o yazır.

Bakının Nərimanov rayonunda yaşayan müharibə, əmək və silahlı qüvvələr veteranları Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasəti dəstəkləyir və ölkəmizdə yaradılan əmin-amanlığa, sabitliyə görə dərin minnətdarlıqlarını bildirirlər. Nərimanov rayonunun müharibə, əmək və silahlı qüvvələr veteranları adından **Fatma Səttarova, Qara Sarıyev, İvan Timçenko, Bağır Məlikov, Səfər Abdullayev, Müseyib Cəfərov, Əlikişi Cümşüdov** və **Tamleyxa Həsənov** koronavirusun yayılmaması üçün görülən qabaqlayıcı tədbirlərin bütün xalqımız tərəfindən müsbət qarşılandığını yazırlar: “Siz və Mehriban xanım hər zaman Azərbaycan xalqının sağlamlığını və təhlükəsizliyini düşünürsünüz. Sizin bu mövzuda xalqımıza etdiyiniz müraciətlər bizdə yüksək əhvali-ruhiyyə yaradır, hamımıza böyük mənəvi stimul verir. Bu gərgin və məsuliyyətli günlərdə etdiyiniz “Biz birlikdə güclüyük!” çağırışını biz veteranlar yekdilliklə dəstəkləyirik.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan, rayon ərazisində yaşayan yaşlı nəslin nümayəndələrinə, müharibə, əmək və silahlı qüvvələr veteranlarına, imkansız ailələrə Sizin göstərişləriniz və diqqətiniz sayəsində ərzaq yardımları verilmişdir. Biz veteranlara göstərilən diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildirir, müstəqil Azərbaycanımızın daha da inkişafı naminə gələcək işlərinizdə yeni nailiyyətlər arzulayırıq”.

“Sizin tərəfinizdən koronavirus pandemiyası ilə bağlı görülən bütün tədbirlər, xüsusən bu günlərdə daha çox zəhmət çəkən, fəaliyyət göstərən tibb işçilərinin maaşlarının artırılması bir daha dövlətin hər bir vətəndaşın əməyini vaxtında qiymətləndirməsinin bariz nümunəsidir”. Bunu isə Salyan rayonunun Kürqaraqaşlı kəndinin sakinləri **Turanə Abbasova, Mirzağa Vəliyev** və **Füruzə Həsənova** yazırlar. “Çəkdiyiniz bütün zəhmətlərə görə Sizə təşəkkür edirik. Hər zaman çətin məqamlarda ölkə vətəndaşlarının yanında olduğunuzu bir daha sübut etdiniz. Cənab Prezident, əminik ki, xalqımız Sizinlə bu çətinliklərin öhdəsindən gələcək, hazırkı narahat günlərimiz tezliklə tarixin yaddaşına köçəcək və doğma ölkəmizdə həyat yenidən rəhbərliyiniz altında öz axarına düşəcəkdir”, - deyə məktubda bildirilir.

**Fərasət Davudov** Astaranın Təngərud kəndindən yazır: “Bu çətin günlərdə qəbul etdiyiniz düzgün qərarlara görə Sizə “Çox sağ olun!” deyir, Sizinlə fəxr etdiyimi bildirirəm. Sərhədlərin vaxtında bağlanması, ölkəyə girişin məhdudlaşdırılması itkilərimizi minimuma endirdi. Sahibkarlara dəyən ziyana görə kompensasiyaların verilməsi özəl sektora böyük dəstək oldu. Bu barədə qərarlarınızı alqışlayırıq. İşi olmayan şəxslərə göstərilən maddi dəstək, aztəminatlı ailələrə verilən ərzaq yardımları isə heç kəsin diqqətdən kənarda qalmadığını göstərir”.

Mingəçevirdən **Nəriman İsmayılov** Prezident İlham Əliyevə səmimi təşəkkürlərini bildirərək yazır ki, vətəndaşların sağlamlığını düşünərək koronavirusla mübarizə sahəsində atdığınız addımları, gördüyünüz tədbirləri izlədikcə Sizə olan rəğbətimiz və sevgimiz daha da artır: “Koronavirusa qarşı qabaqlayıcı tədbirlər görən ölkələrdən biri də Azərbaycandır. İşinizin çox olmasına baxmayaraq, hadisələrin axarını uzaqgörənliklə, dəqiq və düzgün təhlil edərək vaxtında verdiyiniz qərarlar, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün misilsiz əhəmiyyətə malikdir”.

**Möhlət İbayev** isə Lerik rayonundan yazır. “Bütün dünyada olduğu kimi, ölkəmizdə də yayılan COVID-19 pandemiyasına qarşı apardığınız qətiyyətli mübarizəni alqışlayırıq. Bu virusla mübarizə bir daha göstərir ki, Sizin siyasətinizin əsasında Azərbaycan xalqı və onun rifahı dayanır. Xalqımızın sağlamlığı Sizin üçün hər şeydən üstündür. Ölkəmizdə virusa qarşı aparılan qətiyyətli mübarizəyə görə şəxsən öz adımdan və Lerik əhalisi adından Sizə dərin minnətdarlığımı bildirirəm. Biz hər zaman Sizinlə fəxr edirik. Biz birlikdə güclüyük! Tanrı Sizi qorusun”, - deyə onun məktubunda bildirilir.

Prezidentə təşəkkürünü bildirən gənclərdən biri də Qəbələ rayonundan Aqil Əzizovdur. Onun məktubunda yazılır: “Hər bir yaxşı və çətin gündə Siz xalqımızın, gənclərin və ahılların yanında olmusunuz. Dünyanı bürümüş COVID-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədi ilə verdiyiniz göstərişlər, görülən tədbirlər xalqımız tərəfindən alqışlanır. Bunlara görə Sizə nə qədər təşəkkür etsək, yenə də azdır. Siz və Mehriban xanım Əliyeva xalqımızın arxasında olduğunuz kimi, biz də Sizi dəstəkləyir və Sizə güvənirik”.

Ağcabədinin Hacıbədəlli kənd sakini **Jalə Qurbanlı** işsiz kimi birdəfəlik ödəmə aldığı üçün Prezidentə təşəkkür məktubu göndərib. “Xalqa göstərdiyiniz böyük qayğıya görə Sizə təşəkkür edirəm. İşsiz kimi qeydiyyata alındığım üçün mənə 190 manat birdəfəlik ödəmə verildi. Buna görə bir daha Sizə minnətdarlığımı bildirirəm. Xalqımız, dövlətimiz, gələcək nəsillərin xoşbəxtliyi naminə fəaliyyətinizdə Sizə və ailənizə cansağlığı və uzun ömür arzulayıram. Allahdan bu bəlanın tezliklə Azərbaycanımızın və bütün dünyanın başı üzərindən çəkilməsini diləyirik”, - deyə o, məktubunda yazır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Biz dövlət başçısının çağırışlarına könüllü “hə” deyirik!

## İnternat məzunları da koronavirus pandemiyasına qarşı mübarizədə xeyirxahlıq aksiyalarına qoşulublar

Hazırda dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizədə ən qabaqcıl ölkələr də çətinlik çəkirlər. Bizim ölkəmizdə isə vəziyyət nəzarət altındadır. Koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə dövlət tərəfindən vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər artıq öz müsbət nəticəsini göstərir.



Ölkə başçısının “Biz birlikdə güclüyük!” və “Evdə qal” çağırışları günün əsas şüarlarına çevrilib. Bu səbəbdən həkimlərimiz, daxili qoşun hissələrinin xidmətçiləri, hərbçilərimiz və polislərimiz ölkə vətəndaşlarını bu virusdan, onun yaratdığı fəsadlardan qorumaq üçün bütün tədbirləri görür. Ən mühüm olanı bu çətin günlərdə xalqımızın həmrəylik nümayiş etdirməsidir. Cəmiyyətimizin fəal vətəndaşları bir araya gəlib milli birlik yaradaraq, xeyirsevər insanlarımızın dəstəyi ilə ehtiyacı olan minlərlə ailələrə ərzaq və müxtəlif yardımlar göstərirlər. Bu da bizim xalqın nə qədər böyük və xeyirxah olduğunun bariz nümunəsidir. Görülən tədbirlər, atılan addımlar təbii ki, ölkəmizin hazırkı ağır dönəmdən ən az itkilərlə çıxacağına əminlik yaradır.

Koronavirus səbəbindən yaranmış vəziyyətlə əlaqədar gündəlik işini itirən bəzi internat məzunlarının vəziyyəti hər gün bir az da çətinləşir.

Bu dar günlərdə insanlarımıza qarşı mərhəmətli və qayğıkeş olmaq vacibdir. Biz də ilk olaraq işini itirmiş, kirayədə yaşayan, xəstəsi və qayğıya ehtiyacı olan internat məzunlarına dəstək verməyə, yardım göstərməyə çalışdıq. Dəstəyimiz əsasən bu cür ailələr haqqında məlumatları toplayıb xeyirsevər dostlara göndərmək və onları birbaşa ehtiyacı çox olan ailələrlə əlaqələndirmək oldu. Nəticədə lazım olan dərmanlar alınıb həmin ailələrə çatdırıldı. Ümumilikdə birliyimizin könüllülərinin iştirakı ilə 300-ə yaxın ailəyə birdəfəlik ərzaq payları verildi. Bu məsuliyyətli və xeyirxahlıq missiyasında yanımızda olduqlarına görə Nadir Adilmana, Zumrud Rüstəmliyə, Zülfiyyə Mustafayevaya, eləcə də adlarının çəkilməsini istəməyən digər xeyirxahlarımıza təşəkkür edirik. “Evdə qal-biganə qalma”, “Xızı Baba”, “Progress-Klub” və “RotarayClub” könüllü yardım aksiyalarının təşkilatçı komandalarının dəstəyi nəticəsində yalnız internat məzunu olan ailələri birdəfəlik ərzaq payı və lazım olan dərmanlarla təmin edə bildik. Bu səbəbdən ianələr edən və bu sahədə könüllü çalışaraq həmin əmanətləri ehtiyac sahiblərinə çatdıran dostlarımızın hər birinə təşəkkür edirik.

Əlbəttə, ən əsası bu ərzaqların təhlükəsizlik qaydalarına riayət edərək ailələrə çatdırılmasıdır. Bu, böyük məsuliyyətdir. Həmin məsuliyyəti öz üzərinə götürən böyük bir könüllülər ordusu var ki, gecə-gündüz çalışır: ailələrə bir-bir gedərək onların sevincinə səbəb olurlar. Belə könüllü gənclər arasında ilk günlərdən aksiyalara qoşulan Tural Əlizadə, Rəşad Əhmədov, Yalçın Abbasov, Ağalar Paşazadə, İbrahim Abzatov, Fizuli Həsənov və s. kimi bizim internatın da məzunları var. Bəli, dövlət başçısının bildirdiyi kimi, “Biz birlikdə güclüyük!” Biz vaxtında gördüyü tədbirlərə görə dövlət başçısına minnətarıq.

***Araz ƏHMƏDOV,***
***“İnternat Məzunlarının Sosial İnteqrasiyası” Gənclər İctimai Birliyinin rəhbəri***

# Cənab Prezident, biz sizinlə güclüyük!

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, tanınmış rejissor **Əliqismət Lalayev** rəhbərlik etdiyi teatrın kollektivi adından ölkə başçısı İlham Əliyevə dünyanı sarsıdan koronavirus pandemiyasının respublikamızda geniş yayılmasının qarşısının alınması istiqamətində apardığı uzaqgörən siyasətə, əhalinin sağlamlığının qorunması naminə həyata keçirdiyi qabaqlayıcı tədbirlərə görə təşəkkürünü bildirib.

O, dövlət başçısına ünvanladığı müraciətində minnətdarlığını belə ifadə edib:

“Möhtərəm Prezident, dünyanı sarsıdan, milyonlarla insanın qorxu kabusuna çevrilən koronavirus dəhşətinin respublikamızda yayılmasının qarşısının operativ surətdə alınması istiqamətində Sizin rəhbərliyinizlə aparılan təxirəsalınmaz tədbirlər ölkə əhalisinin müxtəlif təbəqələri arasında birmənalı olaraq belə qarşılanır: Azərbaycan qüdrətli dövlətdir və onun çox uzaqgörən, xalqın qayğısına qalan, böyükdən kiçiyə hər kəsin sağlamlığını nəzarətdə saxlayan bir lideri var! Sizin humanistliyiniz, şəfqətiniz, körpə uşaqlardan tutmuş yaşlı vətəndaşlarımıza qədər hər bir ailəni düşünməyiniz bəlkə də dünyanın heç bir siyasi liderində yoxdur. Hələ yaxın günlərədək parıltısı ilə göz qamaşdıran bəzi dövlətlərdə pandemiyanın ikinci- üçüncü günü qocalardan, kimsəsizlərdən üz çevirdilər, minlərlə insanı taleyin amansız imtahanı ilə baş-başa buraxdılar.

Siz isə bütün ailənizlə birlikdə xalqın yanındasınız!

Sizin bu gözlənilməz bəlaya qarşı vaxtında başladığınız səmərəli mübarizə tədbirləri barədə indi xarici ölkə mətbuatı da yazır, gənc dövlətimizi, onun rəhbərini - sevimli Prezidentimizi nümunə göstərirlər. Əlbəttə, bu, bizim üçün, Sizə hər zaman arxa, dayaq olan, Sizi ümid, pənah yeri bilən ölkə vətəndaşları üçün qürurverici bir duyğudur. Biz buna görə Sizə borcluyuq. Məqamında verdiyiniz sərəncamlar, açılan yeni xəstəxanalar, virusun qarşısının alınmasına kömək edən gigiyenik ləvazimatlar hazırlayan yeni müəssisənin qısa müddətdə işə başlaması, bütün ölkə ərazisində aparılan dezinfeksiya tədbirləri, ölkədə karantin rejiminin vaxtında elan edilməsi, onlarla digər qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə nəzarətə nail olmanız Sizin zəhmətinizin bəhrəsidir! Siz bu ağır və səksəkəli günlərdə bir daha bütün bədxahlarınıza sübut etdiniz ki, Vətəni, xalqı populist çağırışlarla yox, işlə-əməllə sevərlər. Koronavirus dalğasının dünyada və Azərbaycanda yavaş-yavaş səngiməsinə baxmayaraq, gözəgörünməz düşmənlə müharibə hələ də davam edir. Bu çətin sınaqdan az itkilərlə və alnıaçıq çıxmaq üçün atdığınız bütün addımlar xalqın yaddaşına yazılır və əminəm ki, bir millət olaraq bu gün ölkəmizdə yaşayan hər bir vicdanlı insan Sizə, eləcə də ailənizə hörmət və ehtiramını ifadə etmək, minnətdarlığını bildirmək arzusundadır. Xalq-rəhbər birliyinin, dövlət-cəmiyyət yekdilliyinin təntənəsidir bu, cənab Prezidentim! İnanıram ki, bu birlik, bu yekdillik yaxın gələcəkdə Qarabağımızın azadlığına nail olacaq Ali Baş Komandanımızı da alqışlayacaq!

Sizinlə yanaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da xalqa səmimi və təsirli çağırışları, sözün əsl mənasında, bizə yaşamaq, daha gözəl günlər haqqında düşünmək üçün bir stimul verdi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanımın təşəbbüsü ilə aztəminatlı ailələrə yardım kampaniyasına yüzlərlə insan qoşulub. Bu ağır və imtahan dolu günlər bir daha xalqımızın xeyirxahlıq, yardımlaşmaq, bölüşmək kimi milli xüsusiyyətləri unutmadığını sübut etdi.

O xalq böyükdür ki, körpəsinə mərhəmət, böyüyünə ehtiram göstərsin! Biz bunun nümunəsini, millətin, ölkənin müqəddəs xeyirxahı kimi Sizin simanızda gördük.

Uca Allah Sizi qorusun!

Biz birlikdə güclüyük, cənab Prezidentimiz! Xalq sizinlədir! Azərbaycan vətəndaşları bu əzmkarlığınız, bu yorulmaz mübarizə əzminiz, qayğı və diqqətiniz üçün Sizi çox sevir, ürəkdən alqışlayır, Sizə uzun ömür, cansağlığı arzulayır.

Tanrı sizi qorusun! Tanrı millətimizi, Vətənimizi qorusun!”

# Bakı şəhərində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin**

**SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində Sabit Orucov, Nizami, Mehdi Hüseynzadə və 28 May küçələrinin bir hissəsinin genişləndirilməsi və sözügedən küçələrin Yusif Səfərov küçəsi ilə kəsişməsinin təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 11,6 milyon (on bir milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 aprel 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2017-ci il 6 noyabr tarixli 1665 nömrəli Fərmanında və 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin**

**FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 noyabr tarixli 1665 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2004) 3.1-ci bəndində "5" rəqəmi "6" rəqəmi ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2272; 2018, № 6, maddə 1201) ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 5.2-ci bəndinin birinci cümləsində "5" rəqəmi "6" rəqəmi ilə və ikinci cümləsində "4" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 aprel 2020-ci il*

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib

Aprelin 20-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Hicran Hüseynova iclası açaraq gündəlikdə olan məsələlərlə komitə üzvlərini tanış edib.

İclasda Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda müzakirə ediblər.

Komitə üzvləri - Jalə Əliyeva, Rauf Əliyev, Sədaqət Vəliyeva, Rəşad Mahmudov, Sevil Mikayılova, Nigar Arpadarai, Ramin Məmmədov, Tamam Cəfərova, Könül Nurullayeva, Pərvin Kərimzadə gündəlikdə olan məsələlər barədə fikirlərini bölüşüblər. Bildirilib ki, qanunlara edilməsi nəzərdə tutulan əlavə və dəyişikliklər "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədi daşıyır.

Müzakirələrdən sonra təklif olunan dəyişikliklər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Aprel ayı üzrə müavinət, təqaüd və kompensasiyaların ödənişinə başlandı

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən aprel ayı üzrə müavinət, təqaüd və kompensasiyaların ödənişinə başlanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Bakının Səbail, Yasamal, Binəqədi, Nəsimi, Qaradağ rayonları, eləcə də Abşeron rayonu və respublikanın digər şəhər və rayonları üzrə müavinət, təqaüd və kompensasiyaların ödənişi həyata keçirildi. Bu gün isə paytaxtın Nizami, Nərimanov, Xətai, Xəzər, Pirallahı, Sabunçu və Suraxanı rayonları üzrə həmin ödənişlər təmin ediləcək.

Yaşı 65-dən yuxarı olan və bu növlərdə ödəniş alan şəxslərin yaxınları, ailə üzvləri evdən çıxmaq üçün müvafiq icazə əsasında, habelə tənhalara xidmət edən sosial xidmətçilər həmin vəsaitləri istənilən bankın, həmçinin "Azərpoçt"un bankomatlarından və ya posterminallarından alaraq (hər hansı faiz tutulmadan) sahiblərinə çatdıra bilərlər.

Qrafikə əsasən aprelin 28-də isə ünvanlı dövlət sosial yardımlarının ödənişi nəzərdə tutulub.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 30 min şəxs üçün birdəfəlik vəsait köçürdü

İşsiz və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul aztəminatlı şəxslərdən daha 30 mini üçün birdəfəlik vəsait (190 manat) köçürüldü. Bu barədə AZƏRTAC-a nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən birdəfəlik ödəmə proqramının əhatə dairəsinin 3 dəfə artırılması, ümumilikdə 600 min şəxsin birdəfəlik ödəmə ilə təminatı nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aprelin 9-dan gündəlik olaraq birdəfəlik ödənişlər həyata keçirilir. Artıq 260 min nəfər üçün ödəniş edilib və bunun üçün 49,4 milyon manat vəsait köçürülüb.

Birdəfəlik ödəmə vəsaiti köçürüldükdən sonra vətəndaşların telefon nömrəsinə bu barədə SMS göndərilir. İşsiz şəxslər bu mesajı aldıqdan sonra, evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" MMC qeyd edildiyi halda istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edirlər.

Birdəfəlik ödənişlər qarşıdakı günlərdə də davam edəcək.

# Azərbaycanda yeni koronavirus infeksiyasına daha 38 yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına daha 38 yoluxma faktı qeydə alınıb, 79 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1436 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 791 nəfər müalicə olunaraq sağalıb, 19 nəfər vəfat edib, 626 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilən tədbirlər davam edir

Energetika Nazirliyi cari ilin ilk rübü üzrə bərpa olunan enerji mənbələrindən istifadə sahəsində görülən işlər barədə məlumat yaymışdır.

Məlumatda bildirilir ki, göstərilən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamından irəli gələn tapşırıqların icrası ilə bağlı yaradılmış komissiyanın fəaliyyət istiqamətləri üzrə aidiyyəti qurumların rəhbərliyi ilə təsis edilmiş 7 işçi qrup öz işini davam etdirmişdir.

Hesabat dövründə torpaq sahələrinin ayrılması üzrə işçi qrup tərəfindən torpaq sahələrinə yerində baxılması üçün müvafiq orqanların nümayəndələrinin iştirakı ilə günəş və külək enerjilərindən istifadə üzrə layihələrin reallaşdırılacağı "Area 60" və "Area 1" adlandırılan sahələrə səfərlər edilmiş və ərazilər üzrə müzakirələr aparılmışdır.

Məlumatda qeyd olunur ki, şəbəkənin gücləndirilməsi və şəbəkəyə inteqrasiya üzrə işçi qrup tərəfindən pilot layihələrin enerji sisteminə inteqrasiyası ilə bağlı ilkin sxemlər müzakirə edilmiş, enerji sisteminin idarə olunması, elektrik enerjisinin ötürülməsi, rele-mühafizə və avtomatika üzrə tədbirləri əhatə edən beynəlxalq standartlara müvafiq tələblər və şəbəkənin gücləndirilməsinə dair görüləcək işlər müəyyənləşdirilmişdir. "Masdar" şirkətinin nümayəndələri ilə "Azərenerji" ASC-nin nümayəndələri arasında keçirilmiş görüş zamanı şirkət tərəfindən "Azərenerji" ASC-yə təqdim edilmiş günəş elektrik stansiyası ilə əlaqədar birxətli sxem müzakirə olunmuş və razılığa gəlinmişdir. Hazırda "Acwa Power" şirkəti tərəfindən həyata keçirilməsi nəzərdə tutulan külək layihəsi ilə əlaqədar ərazinin konfiqurasiyasının dəqiqləşdirilməsi işləri aparılır. Dəqiqləşmələr sona çatdıqdan sonra müvafiq sxem "Azərenerji" ASC-yə təqdim edilərək razılaşdırılacaq.



"Rüb ərzində hüquqi və institusional məsələlər üzrə işçi qrupun fəaliyyəti də davam etdirilmişdir. İşçi qrupun komissiyaya təqdim edilmiş rəyindən sonra əməkdaşlığa başlanmış "White & Case" şirkəti tərəfindən elektrik enerjisinin satın alınması müqaviləsi, elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulması müqaviləsi, layihələrin icrası ilə bağlı dövlət zəmanəti müqaviləsi və tələb olunan digər müqavilələrin ilkin layihələri hazırlanmışdır. Bu layihələr "White & Case" şirkətinin nümayəndələri ilə baş tutacaq görüşlərdən əvvəl müzakirələrin aparılması, sənədlərlə bağlı müvafiq rəylərin formalaşdırılması, konseptual məsələlər üzrə mövqe bildirilməsi məqsədilə aidiyyəti işçi qruplara təqdim olunmuşdur. Qeyd edək ki, iqtisadi-maliyyə-kommersiya və texniki məsələlər üzrə müzakirələrin aparılması üçün "White & Case" şirkətinin cari ilin ikinci rübündə Bakıya səfəri planlaşdırılır", - deyə məlumatda bildirilir.

Məlumatda o da nəzərə çatdırılır ki, ekoloji və sosial qiymətləndirmə ilə bağlı işçi qrup tərəfindən keçirilən müzakirələrin nəticəsi olaraq təklif edilən ərazilər üzrə sahə səfəri həyata keçirilmiş və bərpa olunan enerji mənbələrindən istifadə ilə əlaqədar pilot layihənin icrası üçün seçilmiş ərazilərə dair ekoloji və sosial qiymətləndirmə barədə rəy hazırlanaraq Energetika Nazirliyinə təqdim edilmişdir.

Rüb ərzində tikintiyə icazə və istismara qəbul ilə bağlı işçi qrup tərəfindən müzakirələr aparılmış, xarici investorların cəlbi ilə həyata keçirilən pilot layihələrin əhəmiyyətini və müvafiq sərəncamda göstərilən tarixin məhdudluğu nəzərə alınaraq, Energetika Nazirliyinin səlahiyyətli nümayəndələrinin, habelə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlarının iştirakı ilə nəzərdə tutulan ərazilərin Energetika Nazirliyinin balansına verilməsi və qanunvericiliklə tələb olunan razılaşdırma və təsdiq prosedurlarının sadələşdirilməsi ilə bağlı təkliflərin baxılması üçün komissiyaya təqdim edilməsi qərara alınmışdır.

Nazirliyin məlumatında vurğulanır ki, cari ilin I rübündə həmçinin bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı üçün mümkün potensialın qiymətləndirilməsi və bu potensialdan istifadə məqsədilə atılacaq addımların və yerinə yetiriləcək tədbirlərin vaxt qrafikinə uyğun bir sıra tədbirlər həyata keçirilmişdir. Seçilmiş və prioritetləşdirilmiş bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik sahələrdə hərrac vasitəsilə investisiya qoyuluşu istiqamətində işlər də davam etdirilmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə adıçəkilən hərracların layihələndirilməsi və icra edilməsi üzrə əməkdaşlıq çərçivəsində müvafiq məsləhətçi şirkət tərəfindən hazırlanmış hərrac qaydaları, alqı-satqı müqavilələrinin prinsipləri və qoşulma müqaviləsinin layihəsi baxılması üçün Energetika Nazirliyinə təqdim olunmuşdur. Hesabatda qeyd edilir ki, AYİB bərpa olunan enerji potensialına malik sahələrin birində külək ölçü-müşahidə stansiyasının quraşdırılması və ölçmələrin aparılmasında kömək göstərməyi qəbul etmişdir. Hazırda bank 12 aylıq külək ölçmə-müşahidə işlərini layihələndirəcək və həyata keçirəcək məsləhətçi şirkət cəlb edilməsi istiqamətində işlər görür.

Hesabat dövründə "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli sərəncamla Energetika Nazirliyinə verilmiş tapşırıqların icrası məqsədilə Norveçin "DNV GL Energy Advisory GmbH" şirkəti cəlb edilməklə hazırlanmış "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" qanun layihəsi razılaşdırılmaq üçün müvafiq dövlət qurumlarına təqdim olunmuşdur.

Hesabatda habelə qeyd edilir ki, Böyükşor gölündə 100 kVt-a qədər gücə malik olacaq fotovoltaik sistemin quraşdırılması, eləcə də günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi üçün biznes modellərinin formalaşdırılması, təlimlər vasitəsilə milli potensialın gücləndirilməsini nəzərdə tutan "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" adlı pilot layihəsi davam etdirilir və layihənin icrasının 2021-ci ilin mart ayına qədər başa çatdırılması nəzərdə tutulur. Kiçik su elektrik stansiyalarının istismarı, tikintisi və layihələndirilməsi sahəsində BP və ATKİNS şirkəti ilə ötən il yaradılmış əməkdaşlıq əlaqələri və BP-nin dəstəyi ilə ATKİNS şirkəti ilə bu sahədə layihələrin həyata keçirilməsi ilə bağlı müzakirələr də aparılır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Ermənistanda böyük qorxu: «Dünyanın başı koronavirusa qarışıb, indi savaş başlasa, Azərbaycanı dayandıran olmayacaq»

## İşğalçı ölkədə pandemiyanın yayılması artıq nəzarətdən çıxıb

Məlumdur ki, Azərbaycan Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 və Su-25 təyyarələrinin cəlb olunması ilə bir neçə gün bundan əvvəl taktiki-uçuş təlimi keçirilib. İndi Ermənistanda bu fonda hesab edilir ki, Azərbaycan təlimləri indiki şəraitdə keçirməklə koronavirusun daha böyük zərbə vurduğu Yerevana açıq mesajlar verir. Məsələ bundadır ki, koronavirus Azərbaycan və Ermənistana fərqli həcmdə zərər vurur.

Azərbaycan iqtisadiyyatı, maliyyə imkanları buna tab gətirməyə imkan verirsə, Ermənistanda vəziyyət fərqlidir. Koronavirus sözün əsl mənasında Ermənistanın çöküşünü daha sürətli hala gətirir. Hətta o da məlumdur ki, Ermənistanda koronavirusun yayılması artıq nəzarətdən çıxıb.

### "Bizi qarşıda əsl iqtisadi fəlakət gözləyir"

Ölkənin səhiyyə naziri Arsen Torosyan Ermənistan parlamentinin səhiyyə komitəsinin iclasında çıxışı zamanı faktı etiraf edib: "Deyə bilmərik ki, bizdə koronavirusun yayılması dayanıb. Əgər əvvəllər bir mənbədən 50 yoluxma halı baş verirdisə, indi biz 10 və ya 20 mənbədən 16, 20, bəzən də 30 yoluxma halı ilə qarşılaşırıq. Bu da onu deməyə əsas verir ki, koronavirusun yayılması nəzarətdən çıxıb".

Elə polittexnoloq Vigen Akopyan da vəziyyətin yaxşı olmadığını bildirib. Qeyd edib ki, indiki halda Ermənistan hakimiyyəti harada olduğu və hara getmək istədiyi barədə sistemli anlayışa sahib deyil. O bildirib ki, hakimiyyət nəsə etmək istəyir, qabaqlayıcı tədbirlər görməyə çalışır, amma hazırda situasiya mövcud siyasi kursun əleyhinədir.

Akopyanın sözlərinə görə, ölkədə fövqəladə vəziyyət elan edilib, karantin var, amma vəziyyətə nəzarət mümkün olmur: "İstər insanları evdə saxla, istər saxlama, fərqi yoxdur, bu, anlaşılmaz bir vəziyyətdir. Sistemli mexanizmin olmadığına məmurların açıqlamaları da şahidlik edir. Paşinyan bir söz deyir, komendant başqa söz, səhiyyə naziri isə bir ay öncə tam başqa tərəfdə idi, indi əksinədir və ümumiyyətlə, o, nə vaxt adekvat olub ki! Bu halda Ermənistanın sosial-iqtisadi durumunun daha da ağırlaşması müşahidə olunur. Bir şey aydındır ki, biz itirəcəyik. Biz hələ ən ciddi krizisi hiss etməmişik. Mən o fikirlə tam razıyam ki, bizi qarşıda əsl iqtisadi fəlakət gözləyir".

Qeyd olunur ki, bu halda ordunun təminatında yaranacaq problemlər Ermənistanın təhlükəsizliyinə də birbaşa təsir edəcək: "Ən çox narahatlıq yaradan məqamlardan biri də Qarabağ münaqişəsi ilə bağlıdır. İndiki halda məsələ hərbi həll müstəvisinə keçsə, problemlər çox olacaq. Azərbaycan yenə güc nümayiş etdirir. Dünyanın başı isə koronavirusa qarışıb və məni narahat edən budur ki, indi savaş başlasa, ona diqqət yetirən, beləliklə də Azərbaycanı dayandıran olmayacaq".

Bunlar fonunda Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın dedikləri də təsadüfi sayılmır. Mnatsakanyan vurğulayır ki, koronavirus Qarabağ konfliktinin həlli prosesinə müəyyən təsir göstərib. O, ATƏT sədrinin şəxsi nümayəndəsinin hazırda monitorinq aparmadığını da bildirib və ölkəsinin proseslərin inkişafı istiqamətindən narahat olduğunu qeyd edib.

### Ermənilər qorxu içərisindədirlər

Daha bir erməni ekspert Alen Qulyan da eyni mövqe sərgiləyir. O xatırladır ki, Azərbaycan Silahlı Qüvvələri cəbhə xətti yaxınlığında yerləşən təlim sahələrində 3-4 gün ərzində hərbi təlimlər keçiriblər. Ekspert qeyd edib ki, əvvəllər snayper təlimləri keçirirdilərsə, indi artıq artilleriya, tanklar və aviasiya tətbiq edirlər: "Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidməti tərəfindən yayılmış məlumatlardan məlum olub ki, aprelin 9-da T-90 tankları, D-20, D-30 və "Qiatsint-B" özüyeriyən haubitsaları ilə təlimlər keçiblər. Bundan başqa, aprelin 9-da hərbi aviasiya da tətbiq ediblər.

Azərbaycanlı hərbi jurnalistlər və cəbhə xəttində yaşayan istifadəçilər yazırlar ki, təyyarələr cəbhə xəttinə yaxın ərazidə də uçuşlar edib. Onların sözlərinə görə, Tərtər rayonundan Füzuli rayonuna qədər uçuşlar edilib. Az əvvəl Azərbaycan tərəfindən məlumat yayılıb ki, aprelin 10-da "Smerç" yaylımatəşli reaktiv sistemləri ilə döyüşatışlı təlimlər keçirilib. Bunlar olduqca narahatedicidir və Azərbaycanın güc variantından imtina etmədiyini bir daha təsdiq edir".

Daha bir erməni siyasi ekspert Hayk Xaçikyan da savaşı istisna etmir: "İnternetdə məlumat yayılıb ki, Azərbaycan Silahlı Qüvvələri cəbhə xətti yaxınlığında yerləşən təlim sahələrində hərbi təlimlər keçiriblər. Xüsusən də cəbhə xətti yaxınlığındakı uçuşlar indi daha çox diqqəti cəlb edir.

Əlbəttə, Azərbaycan Müdafiə Nazirliyi təlim uçuşları həyata keçirdiklərini bildirib, bənzər şeylər mütəmadi olaraq edilir. "Smerç"in tətbiq olunması ilə bağlı deyə bilərəm ki, son günlərdə mənə "Smerç"in cəlb olunmasının yalnız bir halı məlumdur, o da Naxçıvanda. İndi genişmiqyaslı hərbi təlim deyil, lakin Azərbaycan vəziyyəti bir neçə saat ərzində 180 dərəcə dəyişə bilər. Bax bu da çox narahatedicidir. Xüsusən də koronavirusun Ermənistana vurduğu zərərlər fonunda ordunun təminatında problemlərin artdığı bir vaxtda".

### Ermənistan koronavirusla bağlı həqiqətləri gizlədir

Bütün bu qeyd edilənlər fonunda daha bir maraqlı açıqlama da rusiyalı siyasi ekspert Denis Korkodinovdan gəlib. O bildirir ki, Yerevan həqiqətən də çətin bir durumdadır və qonşu ölkələrlə münaqişə şəraitində olan Ermənistan koronavirusla bağlı vəziyyəti saxtalaşdırmağa məcburdur. Onun sözlərinə görə, koronavirusla bağlı obyektiv informasiya Ermənistanın potensial düşmənləri tərəfindən hücum üçün real bəhanə kimi istifadə edilə bilər: "Bununla bağlı Ermənistan baş naziri Nikol Paşinyan və onun ətrafı ilk növbədə dövlət təhlükəsizliyi üçün beynəlxalq ictimaiyyətin neqativ epidemioloji situasiya haqqında doğru məlumatları əldə etməsində maraqlı deyil. Bununla bərabər, Ermənistan həqiqəti gizlədərək, bu gün koronavirusun yayıldığı Yəmən, Suriya və İraq kimi ölkələrdən fərqlənmir. Məsələn, Yəmən Ali Siyasi Şurasının liderləri bilərəkdən koronavirusla bağlı informasiyanı gizlədirlər ki, bundan koalisiya qüvvələri husilərə genişmiqyaslı hücumlar üçün istifadə etməsin. Yekunda Ümumdünya Səhiyyə Təşkilatı üçün koronavirusun Yəmənə toxunmadığı görüntüsü yaradılır".

Beləliklə, erməni rəhbərliyinin real epidemioloji vəziyyət barədə informasiyanı gizlətməsində qeyri-adi heç nə yoxdur. Yerevan Bakının bu informasiyanı Qarabağı azad etməklə bağlı şəxsi planlarını reallaşdırmaq üçün istifadə edəcəyindən qorxur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**Biz birlikdə güclüyük!**

# Prezidentdən xalqa növbəti möhtəşəm dəstək

## İlham Əliyev qlobal pandemiya dövrü üçün təqdim etdiyi genişmiqyaslı iqtisadi və sosial paketin maliyyə həcmini 3,5 milyard manatadək artırır

*Əvvəli 1-ci səh.*

Maliyyə tutumu 2,5 milyard manat olan bu paket müstəqillik dövrünün ən böyük sosial dəstək proqramı oldu.

Belə ki, pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılandı. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çox idi. Eyni zamanda 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırdı. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək aldı.

Artıq 12 mindən çox vergiödəyicisinə - toplam sayda 123 min 343 nəfər muzdlu işçisi olan müəssisələrə və 23 min fərdi sahibkara Maliyyə Nazirliyi və agent banklar vasitəsilə maliyyə dəstəyi göstərilib.

Prezidentin tapşırığına uyğun olaraq Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb. Dəyişikliklər 3 istiqamət üzrədir. Birinci istiqamətə əsasən pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətilləri təklif olunub. Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti kimi, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcələrinin 50 faiz, yəni 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və digər tədbirlər.

İkinci istiqamət, mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin, yəni 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsidir.

Üçüncü istiqamətin bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır. Belə ki, 2021-ci il yanvarın 1-dək olan dövr üzrə onlara bir çox vergi güzəştləri nəzərdə tutulur. Bunlar epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi\-ödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin əhalinin bir sıra ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı, Prezident tərəfindən təsdiq olunan bəzi məhsul növlərinin idxalının əlavə dəyər vergisindən müddətli azad edilməsidir.



Sahibkarlıq subyektləri ilə yanaşı, həmçinin dövlət vətəndaşın sosial rifah halının yaxşılaşdırılması istiqamətində işsiz insanlara da kifayət qədər vəsait ayırıb. Belə ki, aprel ayı üçün dövlət 200 min işsiz insana 190 manat yardım ayırıb.

Bununla yanaşı, dövlət sektorunda işləyənlərin əməkhaqları da tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Bu da dövlətin humanist siyasətinin bariz təcəssümüdür.

### Dövlət 600 min işsiz insana 2 ay (aprel-may) 190 manat ödəyəcək

Karantin rejiminin mayın 4-dək uzadılması isə o deməkdir ki, dövlət insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha əlavə vəsait ayırmalıdır. Aprelin 17-də Prezident İlham Əliyev İqtisadiyyat naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin iştirakı ilə keçirdiyi iclasda bu məsələyə toxunaraq bildirdi ki, dövlət ilk olaraq aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməlidir.

Prezident bildirdi ki, yardım edilən işsiz vətəndaşların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayı 600 minə çatdırılmalıdır. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir.

Əlavə edək ki, bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür.

Beləliklə, aprelin 17-də Prezident tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb.

Ancaq Prezident təklif etdi ki, bu vəsaiti alacaq vətəndaşlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Yəni birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların bank hesabı açmağa imkanı olmayacaq. Ancaq ikinci ödəniş may ayında veriləcəyi üçün bank hesabı açmağa vaxt var. Əlbəttə ki, dövlətin ayırdığı vəsaitin köçürülmə yolu ilə təqdim edilməsi ilk növbədə şəffaflığın göstəricisidir. Prezident də məhz bunun üçün aidiyyəti təşkilatlara göstəriş verdi.

### İqtisadi və sosial paketin maliyyə tutumu daha da böyüyəcək

Bu tədbirlərin həyata keçirilməsi ilə dövlət həm əhalinin sosial müdafiəsini gücləndirəcək, eyni zamanda, sahibkarlara əlavə dəstək verəcək və ən önəmlisi, insanların həyatını, sağlamlığını qoruyacaq.

Təbii ki, bütün bunları şərtləndirən amil dövlətin imkanlarının göstəricisi, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların uğurlu nəticələridir. Dövlətin iqtisadi qüdrəti gücləndikcə, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılır, pensiya və maaşlar, təqaüdlər artırılır.

Pandemiya dövründə Azərbaycan dövlətinin həyata keçirdiyi həm qabaqlayıcı tədbirlər, həm izolyasiya prosesi əlbəttə ki, böyük maliyyə vəsaiti tələb edirdi.

Prezident İlham Əliyev düşünülmüş və uzaqgörən siyasəti ilə Azərbaycanın bu bəladan az itkilərlə çıxması üçün bütün imkanlarından istifadə edir. Dövlət başçısı üçün insan amili, vətəndaşın sağlamlığı hər şeydən üstündür. Ona görə də Prezidentin ən böyük sosial və iqtisadi paketini məhz pandemiya dövründə təqdim etməsi xalqa xidmət nümunəsinin əyani göstəricisidir.

Əlavə edək ki, dövlət başçısının çoxşaxəli iqtisadi və sosial paketinin maliyyə dəyəri 2,5 milyard manat həcmində idi. Aprelin 17-də Prezidentin verdiyi tapşırıqlar isə göstərdi ki, bu paketin maliyyə tutumu daha da böyüyəcək. Dövlət başçısının dediyi kimi, paketin maliyyə həcmi 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək.

Prezident İlham Əliyev dövlətin bu istiqamətdə atdığı addımları dəyərləndirərək vurğuladı ki, hökumət nə qədər lazımdırsa, o qədər vəsait ayıracaq. Bir sözlə, Azərbaycan dövləti bu vəziyyətdən az itkilərlə çıxmaq, insanların həyatını qorumaq və postpandemiya dövrünə hazır olmaq üçün bütün imkanları səfərbər edib.

Azərbaycan Prezidentinin əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində verdiyi hər bir qərar, atdığı hər bir addım cəmiyyətdə razılıqla qarşılanır. Dövlət başçısına ünvanlanan minlərlə məktubda sadə vətəndaşların onlara göstərilən diqqət və qayğıya görə sonsuz minnətdarlıq hissələri ifadə olunur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Dövlət başçısı koronavirusla mübarizədə dünyaya örnək olan mövqe nümayiş etdirir

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı videobağlantıdakı çıxışında birinci rübün yekunlarının müzakirəsində verdiyi bütün tapşırıqların yerinə yetirilməsinin vacibliyini qeyd edərək, pandemiyanın davam etməsi ilə bağlı əlavə tapşırıqların veriləcəyini də bildirmişdir: "Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır".

Pandemiya bütün bəşəriyyəti, bütün dövlətləri və ayrı-ayrılıqda hər bir kəsi sınağa çəkmişdir. Dünyada 150 min nəfərdən çox adam həyatını itirmiş və 2 milyondan çox insan bu virusa yoluxmuşdur. Buna baxmayaraq sərt və qabaqlayıcı tədbirlər Azərbaycanda vəziyyəti nəzarət altında saxlamağa imkan verir. Son günlərin statistikası dövlət başçısının atdığı addımların və verdiyi qərarların nə dərəcədə düzgün olduğunu əyani şəkildə sübut edir. Yoluxanların sayı azalır, sağalanlar isə artır. Əgər Azərbaycan Prezidentinin qətiyyətli addımları olmasaydı, belə geniş miqyasda qabaqlayıcı tədbirlər görülməsəydi, xəstələrin sayı minlərlə ölçülə bilərdi.

Dövlət başçısının uzaqgörən və çevik siyasəti nəticəsində yoluxma zənciri qırılmış, müsbət dinamika əldə edilmişdir. Operativ qərarlar, sosial məsələlərin həllinin önə çəkilməsi Azərbaycanda milli həmrəyliyi misli görünməmiş ucalıqlara qaldırmış, xalq-iqtidar birliyinin möhtəşəm gücə çevrildiyini sübut etmişdir.

Təsadüfü deyil ki, İlham Əliyev videobağlantıda ən vacib məsələnin insanların sağlamlığı ilə bağlı olduğunu bildirmiş, səhiyyə sistemimizin böyük sınaqdan keçdiyini qeyd etmişdir. Təsadüfi deyil ki, dövlət başçısı Azərbaycanda xəstəliyin yayılma sürətinin nəzarət altında saxlanıldığını qeyd edərək digər ölkələrdə səhiyyənin vəziyyəti ilə əlaqədar olaraq vurğulamışdır: "Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanıblar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı".

Prezident İlham Əliyev 200 min əvəzinə, 600 min insana iki ay ərzində 190 manat məbləğində vəsait verilməsini də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında bir tələb kimi qoymuş, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olanların problemlərini dövlətin öz üzərinə götürdüyünü bəyan etmişdir.

Videobağlantıda Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev artıq 80 min ailənin, yəni 330 mindən çox insanın ünvanlı sosial yardım proqramı ilə əhatə olunduğu barədə məlumat vermiş, İqtisadiyyat naziri Mikayıl Cabbarov pandemiyadan zərər çəkmiş müəssisələrə və mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesinin uğurla getdiyini bildirmişdir. Artıq 11 min 567 vergiödəyicisinə - toplam sayda 123 min 343 nəfər muzdlu işçisi olan müəssisələrə və 22 min 949 fərdi sahibkara Maliyyə Nazirliyi və agent banklar vasitəsilə maliyyə dəstəyi göstərilmiş, Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanmışdır.

Azərbaycan Prezidenti verdiyi tapşırıqların operativ, şəffaf şəkildə yerinə yetirilməsini tələb etmiş, insanların sağlamlığı və həyatı üçün bundan sonra da müvafiq tədbirlərin davam etdiriləcəyini bildirmişdir: "İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Əminəm ki, biz bunu təmin edəcəyik".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*




# COVID-19-un Azərbaycanda yarada biləcəyi təhlükənin qarşısı alınır

## Vətəndaşların sağlamlığının qorunması məqsədilə zəruri tədbirlər görülür

Dünyanın nizamını pozan yeni növ koronavirus, COVID-19 virusu ilə mübarizə davam edir. Qlobal pandemiyanın qarşısını almaq üçün bütün ölkələrdə profilaktik tədbirlər görülür, sosial izolyasiya qaydaları tətbiq olunur.

Azərbaycanda da COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar əsaslı işlər həyata keçirilir.

Bu məqsədlə xüsusi karantin rejiminin 2020-ci il 20 aprel saat 00:00-dan 2020-ci il 4 may saat 00:00-dək uzadılmasına qərar verilib. Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 saylı qərarında qeyd olunan bütün tədbirlər, o cümlədən yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışa, yerli hava uçuşlarına tətbiq olunan məhdudiyyətlər, eləcə də bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 2020-ci il 4 may saat 00:00-dək uzadılır. Bununla belə, uzadılmış karantin rejimindən mərhələli çıxış planı hazırlanaraq, növbəti həftə ərzində ictimaiyyətə təqdim olunacaq. Eyni zamanda ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək uzadılmış karantin rejimi dövründə ayrı-ayrı sahələrdə tətbiq olunan məhdudiyyətlərin yumşaldılması da istisna edilmir.

COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə əlaqədar ölkədəki ümumi vəziyyət təhlil edilərək zərurət olduqda karantin rejiminin yenidən sərtləşdirilməsi də mümkündür.

Tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

Koronavirus pandemiyasının Azərbaycanda yayılmasına qarşı görülən tədbirlərə, virusa yoluxanların müalicəsinə, sahibkarlara, sosial həssas ailələrə, eləcə də sadə insanlara göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə vətəndaşlar tərəfindən minnətdarlıq məktubları gəlməkdə davam edir.

### İcazələrin statusu "myGov" portalına köçürülüb

Vətəndaşlara proaktiv xidmətlər göstərməklə onların işlərini asanlaşdıran, resurslarına qənaət edərək şəffaf və operativ xidmət göstərən "myGov" elektron hökumət portalına xüsusi karantin rejimi zamanı fəaliyyət üçün təsdiqlənmiş icazələr inteqrasiya edilib. Belə ki, vətəndaşlar "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"ndə mövcud icazələrinin statusuna "myGov" portalında baxa bilərlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə, bunun üçün vətəndaş "myGov" portalına daxil olaraq öz şəxsi kabinetində "Məlumatlarım" bölməsini seçir, açılan pəncərədə "İcazələrin Alınması və Monitorinqi Sistemindən arayış"ın üzərinə sıxılır. Burada vətəndaş öz icazəsinə baxa və ya "yüklə" düyməsinə sıxaraq elektron formasını kompüterinə və ya telefonuna yükləyə bilər.

Alternativ olaraq portalın "Bütün xidmətlər" bölməsində "Qurumlar üzrə" altbölməsinə keçid edərək açılan siyahıdan "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"ni seçmək olar. Açılan pəncərədə "İcazələrin Alınması və Monitorinqi Sistemindən arayış" seçimini edərək yenə icazə haqqında arayışı əldə etmək mümkündür.

"myGov" portalına əlavə olunan yeni funksionallıqdan biri də vətəndaşa icaze.e-gov.az portalı üzərindən verilən icazə statusu ilə bağlı onun şəxsi kabinetinə bildirişin gəlməsidir. Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən icazələrin "myGov" platformasına inteqrasiya edilməsi vətəndaşların işini xeyli asanlaşdırmış olur. Belə ki, icazə.e-gov.az portalında verilən və ləğv edilən icazələr haqqında vətəndaşların çoxu məlumatsız olurdu. Artıq vətəndaş özü olduğu yerdən və istənilən vaxtda "myGov" portalına daxil olaraq icazə arayışını yoxlaya bilər.

### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə, 19.04.2020-ci il saat 00:00-dan 20.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1874 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 31 516 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Dünyanın koronavirus mənzərəsi

Almaniyada 1775 nəfər yeni növ koronavirusa yoluxub, ölkədə xəstəliyə yoluxanların sayı 141 672 nəfərə çatıb. Robert Kox İnstitutunun məlumatına görə, Almaniyada son sutka ərzində 110 nəfər COVID-1 virusundan vəfat edib. Ölkədə xəstəlikdən ölənlərin sayı 4404 nəfərə yüksəlib, sağalanların sayı 91,5 min nəfərdir.

Fransanın Baş Naziri Edur Filip ölkəsində koronavirusla bağlı vəziyyətin tədricən yaxşılaşdığını, lakin eyni zamanda səhiyyə sahəsindəki böhranın hələ bitmədiyini vurğulayıb. Onun sözlərinə görə, xəstəxanalarda epidemiyanın yüngülləşməsinin ilk əlamətləri ortaya çıxıb, koronavirus pandemiyasının səbəb olduğu iqtisadi böhran isə yeni başlayır və çox sərt olacaq.

Son məlumatlara görə, Fransada koronavirusdan 20 minə yaxın insan ölüb. Ölkədə beşhəftəlik karantin tətbiq edilsə də, mayın 11-dən etibarən məhdudiyyətlərin bir qədər yumşaldılması planlaşdırılır.

Belçikada koronavirusa yoluxanların sayı 1 478 nəfər artıb. Ölkədə virusa yoluxanların ümumi sayı 39 983-ə çatıb. Son sutkada 168 nəfər COVID-19-un qurbanı olub. Ümumilikdə krallıqda koronavirusdan 5 828 nəfər ölüb.

### Avropa İttifaqına 1,5 trilyon avro məbləğində fondun yaradılması təklif ediləcək

Son statistikaya əsasən, İspaniyada yeni növ koronavirusdan daha 399 nəfər vəfat edib. Ölkənin Səhiyyə Nazirliyindən verilən məlumata görə, bununla da koronavirusdan ölənlərin sayı 20 852 nəfərə çatıb. Qeyd olunub ki, İspaniyada son sutka ərzində koronavirusa 4266 yeni yoluxma faktı qeydə alınıb və indiyə kimi xəstəliyə yoluxanların sayı 200 210 nəfərə çatıb. Xəstəlikdən sağalanların sayı isə 80 587 nəfərdir.

İspaniya koronavirus pandemiyasından daha çox əziyyət çəkən ölkələrin bərpası üçün Avropa İttifaqına 1,5 trilyon avro məbləğində fondun yaradılmasını təklif edəcək. İspaniyanın Baş Naziri Pedro Sançes belə təkliflə bu həftə Aİ-nin sammiti zamanı çıxış edəcək. Madridin planına əsasən, yeni yaradılacaq fond Aİ-nin 27 üzv ölkəsi tərəfindən tələb olunan müddətsiz borc hesabına maliyyələşdiriləcək.

Eyni zamanda ayrı-ayrı dövlətlərə verilən vəsait borc yox, köçürmə olaraq nəzərə alınacaq.

İsraildə koronavirusa yoluxanların sayı son sutka ərzində 129 nəfər artaraq 13 491-ə çatıb. Ölənlərin sayı 1 nəfər artaraq 172-yə yüksəlib. Ümumilikdə isə 3754 nəfər sağalıb.

Rusiyada son sutka ərzində daha 4268 nəfər koronavirusa yoluxub və ölkə ərazisində COVID-19-a yoluxanların ümumi sayı 47 121 nəfərə çatıb.

Koronavirusdan ölənlərin sayı isə 405-ə çatıb. Sağalanların sayı 3446 nəfərdir.

Türkiyədə COVID-19-a yoluxma sayı 86 304 nəfərə, virusdan ölənlərin sayı isə 2017-yə çatıb.

Gürcüstanda yeni növ koronavirusa yoluxanların sayı 399 nəfər olub. Ölkə üzrə karantində 4782 nəfər saxlanılır, stasionar müalicədə isə 503 nəfər var. Virusa yoluxmuş şəxslərdən 93-ü sağalıb, 4 nəfər isə vəfat edib.

İranda son 24 saat ərzində yeni növ koronavirusdan daha 91 nəfər vəfat edib. Bununla da ölkədə bu virusdan ölənlərin sayı 5209 nəfərə çatıb.

Ermənistanda son sutka ərzində daha 48 nəfər yeni növ koronavirusa yoluxub və bununla da ümumi yoluxanların sayı 1339 nəfər olub. Son sutka ərzində isə ölkədə daha 2 nəfər ölüb və koronavirusdan ölənlərin sayı 22 nəfərə yüksəlib.

Son sutka ərzində Çində yeni növ koronavirusa yoluxanların sayı 12 nəfər artıb, ölən yoxdur. Çinin Gigiyena və Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsi bildirib ki, yoluxanlardan 12 nəfər xaricdən gəlib və bununla da xaricdən gələn yoluxanların ümumi sayı 1583 nəfərə çatıb.

Çinin daxilində isə daha dörd yeni koronavirus infeksiyası aşkar edilib: Heylutsyan vilayətində (3 nəfər) və Daxili Monqolustan muxtar rayonunda.

Ölkədə COVID-19-a yoluxanların ümumi sayı 82 747 nəfərə çatıb, onlardan 77 084-ü sağalıb, 4 632-si ölüb. Daha 1031 nəfər müalicə alır və 81 nəfərin isə vəziyyəti ağır qiymətləndirilir.

### Hamı maska taxmalıdır

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Nabil Seyidov söyləyib ki, əvvəlcə maskanın yalnız xəstələr tərəfindən istifadəsi deyilirdisə, indi hamının taxması tövsiyə edilir: "Bununla bağlı təşviqat bütün dünya ölkələrində aparılır. Karantin tədbirləri yumşaldılsa belə, insanlar hələ bir müddət maskadan istifadə etməli və əllərin gigiyenasına əməl etməlidirlər. Koronavirus pandemiyasının nə vaxt qurtaracağı barədə isə heç kim proqnoz verə bilmir. Ona görə də bu hələ çox uzun müddət bizim həyatımızın normasına çevriləcək".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı da bildirib ki, bir il boyunca koronavirus gündəmdən çıxmayacaq: "Koronavirus pandemiyasının hələ nə qədər davam edəcəyi ilə bağlı heç bir məlumat verə bilmərik. Ona görə də bu barədə dəqiq fikir bildirmək düzgün deyil. Çünki virusun yaranma səbəbləri də hələlik bəlli deyil".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayı ilə bağlı fətva verib

## Ramazan ayı aprelin 25-də başlayacaq

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Ramazan ayı ilə bağlı fətva verib. Bu barədə AZƏRTAC-a QMİ-nin Mətbuat xidmətindən məlumat verilib.

Fətvada deyilir: "Aləmlərə rəhmət, möminlərə mərhəmət olan Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayının başlanması münasibətilə dünya müsəlmanlarını, o cümlədən ölkəmizdəki müsəlman qardaş və bacılarımızı müjdələyir, Allah-Təaladan ibadətlərimizin və dualarımızın qəbul olunmasını diləyirik. Bu il ölkə ərazimizin üfüqündə Ay hilalının görünməsinə uyğun olaraq Ramazan ayının 1-i miladi təqvimlə aprelin 25-nə təsadüf edəcək. Ramazani-Şərifin başlanması ilə əlaqədar olaraq Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası aşağıdakıları bəyan edir:

Möhtərəm qardaş və bacılarımız. Builki Ramazana bütün dünyada sürətlə yayılmaqda olan virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan bu bəlanın aradan qaldırılması yönündə dövlətimiz və dünya birliyi böyük səylə çalışır, bütün mümkün qoruma və müalicə tədbirləri həyata keçirilir.

Belə bir mürəkkəb zamanda biz, din xadimləri dövlətimizin insan həyatının qorunması məqsədilə həyata keçirdiyi misilsiz tədbirlərə dəstəyimizi ifadə edir, vətəndaşları qeyd-şərtsiz mövcud xüsusi karantin rejiminin tələblərinə, həkim tövsiyələrinə əməl etməyə çağırırıq. Xüsusi karantin dövrünün tələblərinə uyğun olaraq, öz tərəfimizdən məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılması barədə zəruri qərar vermişik. Biz, din xadimləri mövcud xəstəliyin təmas, ünsiyyət vasitəsilə yoluxmasını nəzərə alaraq, bütün məhdudlaşdırıcı tədbirləri dəstəkləyirik. Xüsusi karantin rejimi dövründə şəriətdə vacib olmayan, adət-ənənələrimizə söykənən dini mərasimlərin (ehsan, mövlud və s.) keçirilməməsini tövsiyə edirik. Şəri baxımdan vacib olan dəfn mərasimləri şəriət qaydalarına əməl edilməsi şərti ilə karantin dövründə məhdud çərçivədə həyata keçirilməlidir. İftar süfrəsinin də hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılmasına çağırırıq. Bildiririk ki, bütün bu tövsiyələr hazırda tüğyan edən xəstəlik səbəbindən müvəqqəti səciyyə daşıyır.

Müqəddəs Kitabımız Qurani-Şərifdə Allah-Təalanın hökmü belədir: "...(Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutsunlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istər..." (Bəqərə,185). Oruc ibadətini hökm edən Mərhəmətli və Rəhim Allah müqəddəs ayeyi-şərifdə buyurur ki, xəstə olan, habelə zəifləyərək xəstəliyə düçar olma ehtimalı olan insanların oruclarını başqa vaxtda tutmaları məqsədəuyğundur. Bu şəxslər sağaldıqdan sonra, sağlam halda gələn Ramazana kimi öz orucluq ibadətlərini tamamlaya bilərlər. Uca Allah sizin üçün asanlıq istəyir.

Builki Ramazanın təsadüf etdiyi mürəkkəb zamanda insanlar Uca Allahın əmanəti olan öz həyatlarını və ətrafdakıların canlarını xüsusilə qorumağa borcludurlar. Elə bir dövrdür ki, bir adamın məsuliyyətsizliyi, laqeydliyi minlərlə günahsız insanın həyatı bahasına başa gələ bilər. Bunun böyük günah olduğunu unutmamalıyıq. Şəriətə görə, insanın sağlığına, sağlamlığına zərər verə biləcək, bədənini zəiflədərək xəstəlik qarşısında aciz hala gətirəcək məqamlara yol verilməməlidir. Necə ki Allahın Peyğəmbəri (s) "Bu ayda ən yaxşı əməl nədir?" sualına cavab olaraq buyurdu: "Bu ayda ən yaxşı əməl, özünü Allahın qadağan etdiklərindən daha çox çəkindirməkdir."

Orucluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən, insan səhhətinə müsbət təsir göstərən ilahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində xeyriyyə əməlləri, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində kömək etmək Allah nəzərində bəyənilən əməllərdəndir. Bu ayda ən böyük savab - daha çox ibadət etmək, Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm, irfanla məşğul olmaqdır. Həzrət Əli Əleyhissəlam buyurub: Əgər bəla sizi Allaha yaxınlaşdırarsa nemət, uzaqlaşdırarsa cəzadır". Uca Allaha təvəkkül edərək özümüzü, yaxınlarımızı qorumalı, əməl, dua və ibadətlərimizlə salamatlığın bərqərar olmasına nail olmalıyıq.

Ramazan günlərində Yer üzünün salamatlığı, ölkəmizin əmin-amanlığı, dünyada yayılan xəstəlik kabusunun və onun gətirdiyi iqtisadi çətinliklərin tezliklə aradan qalxması üçün dualar edib, xəstələrin şəfa tapmasını diləyirik. Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımi tədbirlər görülür. Dövlətin qayğı və diqqətini öz üzərində hiss edən insanlarımız hökumətin verdiyi zəruri qərarlara hörmət, məsuliyyət və anlayışla yanaşırlar. Azərbaycan Prezidenti İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu çətin günlərdə atdıqları addımlar, çıxış və müraciətləri, səmimi münasibət və diqqətləri xalqımıza, millətimizə böyük dəstək, dayaqdır və bizi sabit sabaha ümidləndirir. Azərbaycan dindarları adından dövlət rəhbərliyinə fədakar fəaliyyətinə görə minnətdarlığımızı ifadə edir, Uca Allahdan onların səylərinə rəvac diləyirik. Belə bir mürəkkəb dövrdə gecə-gündüz yorulmadan çalışan Azərbaycan hökumətinin əməyini yüksək dəyərləndirir, zəhməti keçən dövlət, ictimaiyyət xadimlərinə minnətdarlığımızı bildirir, fəaliyyətlərində uğurlar diləyirik. Xəstəliklə mübarizənin ön cəbhəsində vuruşan Azərbaycan həkimlərinin və onların yardımçılarının fədakar zəhmətlərinə xalqımız böyük dəyər verir. Onların bu dövrdə fəaliyyət və mücadilələri əsl qəhrəmanlıq təcəssümüdür. Biz din xadimləri, öz növbəmizdə, bu ağır dövrdə xalqımızın yanında olub, şəriətin buyurduğu şəkildə dini vəzifələrimizi yerinə yetirir, məkrli mərəzdən dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir, xəstələrin tezliklə şəfa tapmaları üçün dualar edirik. Hər bir dərdin dərmanı olduğu kimi, bu bəlanın da çarəsi vardır. Uca Yaradanımıza dualar edirik ki, dünya alimləri tezliklə bu xəstəliyin dərmanını tapsınlar və dünya bu bəladan xilas olsun, İnşallah.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi bu mübarək ayın gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Hazırkı vəziyyətdə təqvimlərin kağız formatında yayılmasının çətinliyini nəzərə alaraq, İdarəmizin saytında (www.qafqazislam.com) yerləşdirilmiş təqvimin internet versiyasından istifadəni tövsiyə edirik. Digər mənbələrdən daxil olmuş, təxribat və təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlar tərəfindən istifadəsi yolverilməzdir. Bütün kütləvi informasiya vasitələrindən məhz QMİ-nin təqviminə istinad etmələri xahiş olunur.

İnşallah, Eydül-Fitr - Ramazan bayramı Şəvval ayının 1-i - Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 24-nə təsadüf edəcəkdir. Ramazan ayının başlanma və bayram günü tarixləri Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən müəyyən edilir. Azərbaycan dövlətinin Ramazan və Qurban bayramlarına ehtiramının göstəricisi kimi bu günlər təqvimdə bayram günü kimi qeyd edilir. Uca Allahın köməyi ilə, mübarək bayram günlərinədək xəstəlik fəsadları aradan qalxar, İnşallah. Bu il ölkədəki xüsusi karantin rejiminin müddətinə dair Azərbaycan hökumətinin verəcəyi qərardan çıxış edərək bayram namazı ilə bağlı sizləri əlavə məlumatlandıracağıq.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 5-10 manat arası fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və hər bir imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verilməsi vacibdir.

Qazılar Şurası din xadimlərimizə tövsiyə edir ki, bu əziz günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarından keçən qəhrəman övladlarımızın, Qarabağ şəhidlərinin, həmçinin xəstəlik səbəbi ilə vəfat edənlərin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun. Duaların qəbul olunduğu mübarək Ramazan ayında ən böyük duamız budur ki, Qadir Allah doğma Azərbaycanımızı, dünyanı virus təhlükəsindən xilas etsin, bizləri bu mərəzdən hifz etsin.

Allah oruc və namazlarınızı qəbul etsin, bizləri məğfirət və mərhəmətinə nail olan bəndələrindən qərar versin. Amin".

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 140 tənha yaşlıya ərzaq yardımı etdi

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də ölkəmizdə geniş vüsət alan sosial dəstək aksiyasına qoşulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hazırda evlərində sosial xidmətlərlə təmin etdiyi tənha yaşlılardan 140 nəfərə komitə tərəfindən ərzaq yardımı edilib.

Paylar sosial xidmətçilərlə birgə tənha yaşlıların evlərinə aparılaraq onlara təqdim edilib.

Bu kimi xeyirxah tədbirlər həssas qrupların, o cümlədən yaşı 65-dən yuxarı tənha yaşayan şəxslərin rifahına dəstək olmaqla yaşlı nəslə diqqət və qayğının əməli ifadəsidir.

***"Azərbaycan"***




# "Total" Azərbaycanda həyata keçirilən layihələrə sadiqdir

## Pandemiya dövründə əməkdaşlığın səmərəli davamı üçün tədbirlər görülür

"Total" şirkəti Azərbaycanda həyata keçirilən layihələrini davam etdirəcək. Bunu SOCAR-ın prezidenti Rövnəq Abdullayevlə görüşü zamanı "Total Azərbaycan" şirkətinin baş meneceri Regis Aqut bəyan edib. Görüşdə qlobal pandemiya dövründə uğurlu "Abşeron" layihəsi çərçivəsində əməkdaşlığın hazırkı səmərəli səviyyədə davamlı olması üçün görülən tədbirlərdən bəhs olunub.



Görüşdə eləcə də hasilatın başlanması və növbəti inkişaf mərhələsi üzrə "Total"ın planları barədə məlumat verilib. Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, qlobal enerji bazarında baş verən proseslər müzakirə edilib.

"Total" Fransanın tanınmış şirkətlərindəndir. Perspektivli "Abşeron" bloku Azərbaycanla neft-qaz sektorunda çoxdandır əməkdaşlıq edən bu şirkətin ölkəmizdəki fəaliyyətini daha da genişləndirib.

1996-cı ildə "Total" Bakıda öz ofisini açmış və həmin vaxtdan kəşfiyyat layihələrində iştirak etməyə başlamışdır. O vaxtdan şirkət iştirakçılarının hamısı üçün qarşılıqlı şəkildə faydalı olan strateji layihələrə qoşularaq Azərbaycanla uzunmüddətli tərəfdaşlığın təməlini qoymuşdur. Belə ki, 1997-ci ildə "Total" şirkəti "Lənkəran-Talış-Dəniz" blokuna daxil olmuş və "Abşeron"da kəşfiyyat işləri aparmaq üçün "Şevron"la tərəfdaşlıq qurmuşdur. Lakin ilkin kəşfiyyatın nəticələri müsbət olmamışdır. Sonralar "Total" şirkəti "Şevron" tərəfindən təhvil verilmiş "Abşeron" blokuna yenidən qayıtmışdır.

Xəzərin Azərbaycan sektorunun dərinsulu hissəsində yerləşən və zəngin ehtiyatlara malik olan "Abşeron" bloku üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) SOCAR-la "Total" arasında 2009-cu il fevralın 27-də imzalanmışdır.

2011-ci il sentyabrın 1-də isə "Abşeron"un Kəşfiyyat, İşlənmə və HPBS-yə uyğun olaraq kəşfiyyat dövrü ərzində operator qismində çıxış edən "Total E & P Absheron" blokda iri qaz yatağının aşkarlandığını bildirmişdir. 2017-ci ilin fevralında layihənin işlənmə proqramı təsdiq edilmişdir.

Xatırladaq ki, "Abşeron" bloku Bakı şəhərindən 100 kilometr aralıda suyun 500 metr dərinliyində yerləşir. İlk quyunun qazılmasından sonra aparılan araşdırmaların nəticələri burada zəngin qaz və kondensat ehtiyatlarının olduğunu göstərmişdir. Ərazidə hərəkət edən layların, qaz tərkibli dayaz təbəqələrin, dərinliklərdə yüksək təzyiqin və palçıq vulkanlarının olması işlərin gedişinə texniki maneələr törədir. Təhlükəsiz istehsalat mühitinə nail olmaq üçün bu amillərlə bağlı tektonik hərəkətlər xüsusi dizayn və mühəndis işləri tələb edir. "Total" bu çətinliklərin öhdəsindən gəlmək üçün dünyanın müxtəlif ölkələrində topladığı bilik və səriştəsindən məharətlə istifadə edir.

Şirkət yatağın gələcəkdə işlənməsi üçün dəniz və quruda geotexniki və geofiziki, eləcə də meteoroloji və topoqrafik məlumatlar toplamağa başlamışdır. Bu araşdırmalar həyata keçirilərkən sosial sahəyə və ətraf mühitin mühafizəsinə dair tələblərə ciddi riayət edilmişdir.

Tədqiqatlar aparıldıqdan sonra "Abşeron" yatağının Erkən Hasilat Sxemi əsasında işlənməsi qərara alınmışdır. Bu sxem sualtı quyunun dayaz yerlərdə Neft Daşlarının yaxınlığındakı qəbuledici platformaya qoşulmasına əsaslanır. Burada qaz mayedən ayrılacaq, mavi yanacaq və kondensat SOCAR-ın mövcud infrastrukturu ilə nəql olunacaq. Qaz yerli bazara göndəriləcək, kondensat BTC kəməri ilə xaricə ixrac ediləcək.

2018-ci ilin fevral ayında Ümummilli Lider Heydər Əliyevin adını daşıyan qazma qurğusu "Abşeron" yatağında işə başlamışdır.

"Total" şirkəti eyni zamanda üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir. Şirkət burada 5 faiz iştirak payına malikdir.

Qeyd edək ki, uzun illərdir Azərbaycanın mühüm layihələrində iştirak edən "Total" dünya bazarında yanacaq, təbii qaz, aşağı karbon tərkibli enerji istehsal edən və satan şirkət kimi tanınır. Onun 100 min nəfərdən çox işçisi insanlara təhlükəsiz, təmiz və sərfəli enerji çatdırmaq amalı ilə çalışır. 130-dan çox ölkədə fəaliyyət göstərən "Total"ın məqsədi ən məsuliyyətli və əsas enerji təminatçılarından biri olmaqdır. Rusiya, Almaniya, Belçika, Hollandiya, Lüksemburq, Qazaxıstan şirkətin işlədiyi ölkələr sırasındadır.

Çalışdığı ölkələrdə "Total" önəmli layihələrdə tərəfdaş olmaqla yanaşı, cəmiyyətin həyatında da fəal iştirak edir. Azərbaycanda da belədir. Məsələn, BTC-nin keçdiyi ərazilərdə yerli icmalara dəstək məqsədilə özünün təşəbbüs göstərdiyi sosial layihələri maliyyələşdirir.

"Total" ölkəmizdə təhsilə də dəstək verir. Belə ki, Azərbaycanın və Fransanın neft elmləri üzrə ixtisaslaşmış məktəb və universitetləri arasında əlaqələr yaradır. Şirkət bir neçə il SOCAR-ın mütəxəssisləri üçün fransız dilinin tədrisini maliyyələşdirib. Ölkəmizdə mədəniyyət və incəsənətə də biganə qalmır. Yerli və xarici ifaçıların iştirakı ilə klassik musiqi konsertləri təşkil edərək Bakının mədəni həyatına öz töhfələrini verir.

Bütün bunlar bir daha təsdiqləyir ki, "Total" təkcə ölkəmizdə iştirak etdiyi neft-qaz və ixrac layihələrinə deyil, həm də Azərbaycanla hərtərəfli əməkdaşlığa və tərəfdaşlığa, mehriban dostluğa sadiqdir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Postpandemiya dünyasını nələr gözləyir

## Koronavirus yox olmamış planetin gələcəyi gündəliyə çıxarılır

Bütün dünyanı bürümüş yeni tip koronavirusun doğurduğu ümumbəşəri fəlakətin miqyasını təsəvvür etmək hələ mümkün deyil. COVID-19-a yoluxanların, ölənlərin sayı artmaqda davam edir. Gözəgörünməyən düşmənin bundan sonra nələr törədəcəyini heç kim təxmin edə bilmir. Koronavirus yayılıb pandemiya mərhələsinə keçəndə sağlam təfəkkür sahibləri bildirirdilər ki, Yer sivilizasiyasının davam etməsi üçün ilk növbədə dünya ölkələri hər cür ixtilaflara son qoyub səyləri birləşdirməli, ümumi düşmənlə mübarizədə vahid cəbhədə çıxış etməli, eyni zamanda tibb elmi xəstəliyi diz çökdürmək üçün dərman-dava hazırlayıb planeti virusdan təmizləməyə zəmin yaratmalıdır. Başqa sözlə, dilindən, dinindən, irqindən asılı olmayaraq, bəşər övladlarının bir yumruq kimi birləşməsindən başqa çıxış yolu görünmürdü.

Təəssüf ki, insan sivilizasiyasının gələcəyini düşünənlərin çağırışına səs verən hələlik tapılmır. Doğrudur, xəstəliyə qarşı vaksin hazırlayanlar iş başındadırlar, hərçənd onların tezliklə lazımi nəticə əldə edəcəyini gözləmək yersizdir - təqribən bir ilə yaxın vaxt tələb olunur. Amma eyni sözləri dünyanı bir-birinə qarışdıranlar- günahsız insan qanını axıtmağı özlərinə peşə seçənlər, planetin böyük bir regionunda "ərəb baharı" adlı qan gölü yaradanlar, geosiyasi iddialarını rəhbər tutub müstəqil dövlətlərin suverenliyini istədikləri kimi pozanlar, öz maraqları naminə özgə torpaqlarını zəbt edənlər, ayrı-ayrı xalqları dizə gətirmək üçün cürbəcür vasitələrə əl atmaqdan çəkinməyənlər haqqında söyləmək mümkün deyil. Hərçənd dünyada təkbaşına ağalıq etmək, yaxud Günəş altında özündən böyük pay almaq fikrində olanlar bar-bar bağırırlar ki, koronavirusu təkbaşına məğlub etmək imkan xaricindədir. Elə isə niyə başqasının bədbəxtliyi üstündə xoşbəxtlik qurmaq niyyətində olanlar istəklərindən əl çəkmirlər?

Çoxları hesab edirlər ki, pandemiya başa çatandan sonra dünya indiki kimi olmayacaq, başqa şəkil alacaq. Diqqət ilk növbədə postpandemiya dövründə iqtisadiyyatın necə bərpa ediləcəyinə yönəldilir. Ekspertlər arasında belə bir fikir var ki, ayrı-ayrı ölkələr iqtisadiyyatı milliləşdirməyə üstünlük verəcək, ehtiyaclarını daxili istehsal hesabına ödəmək istiqamətində hərəkət edəcəklər. Yəni söhbət mümkün qədər qapanan iqtisadiyyatdan gedir. Lakin belə bir ideyanı gerçəkləşdirməyə şübhə edənlər də az deyil: milli iqtisadiyyatlar bir-birinə o qədər bağlanmışdır ki, onları ayırmaq mümkün görünmür.

Ekspertlərin fikrincə, postpandemiya dünyası rəqəmsallaşacaq, onlayn texnologiyalara keçid sürətlənəcək. Belə ki, insan həyatının əksər sahələrində fəaliyyət internet vasitəsilə icra olunacaq. Məsələn, xidmətlər və ticarət sahəsi əsasən internetə əsaslanacaq. Lakin dərhal sual ortaya çıxır: doğrudanmı, əhalinin hamısı belə bir dəyişikliyə hazırdır? Axı yaşlı adamlar müxtəlif elektron xidmətlərdən istifadə etməyə qadir deyillər, çünki onların bir çoxunun belə xidmətlər barədə elementar təsəvvürü yoxdur, hətta müxtəlif müasir texnologiyaları eşidəndə söhbətin nədən getdiyini başa düşmürlər. Yaxud təhsilin internetə keçirilməsi, başqa sözlə, müəllimin şagirddən, tələbədən ayrı salınması yaxşı nə vəd edə bilər?

Postpandemiya dünyası barədə düşünənlər hesab edirlər ki, gələcək insanın evi həm mənzil, həm də ofis rolu oynayacaq. Sahibkarlar anlayacaqlar ki, "uzaqdan işləmək" sərfəlidir, çünki nəqliyyat vasitələrinə və nəticə etibarilə yanacağa qənaət etməyə imkan verir, böyük ofis sahəsi icarə etmək zərurətini aradan qaldırır. Üstəlik, rəqəmsal texnologiyaların tətbiqi ilə işçiləri ezamiyyətə, xüsusilə xarici ölkələrə göndərməyə o qədər də ehtiyac qalmayacaq - yenə də yanacağa tələbat azalacaq. Digər tərəfdən, bank sistemlərinin və pul tədavülünün rolu xeyli dəyişəcək: koronavirusun pandemiyası şəraitində nağd puldan istifadə artıq təhlükəli sayılır.

Bütün bunlara baxmayaraq, pandemiyadan sonra insan həyatının bu və ya digər dərəcədə dəyişəcəyinə şübhə ilə yanaşanlar, demək olar ki, yoxdur. Amma həyatın transformasiyası hansı formada reallaşacaq? Fikirlər, ideyalar, təsəvvürlər müxtəlifdir, konkret konsepsiyalar hələ meydana çıxmamışdır. Bununla belə, mütəxəssislər qlobal proseslərdə mənfi meyilləri indidən nəzərə çarpdırırlar. Söhbət ilk növbədə beynəlxalq təhlükəsizlikdən gedir. Böyük dövlətlər arasında geosiyasi qarşıdurmanın səngiməsindən danışmaq yersizdir: heç kim iddialarından əl çəkməyi, zərrə qədər də güzəştə getməyi düşünmür. Üstəlik, dünya gücləri pandemiyanın başa çatmadığı, "taclı virus"un meydan suladığı bir vaxtda qılıncı qından çıxarmağa hazırlaşırlar.

Bu baxımdan istər-istəməz ABŞ-la Çin arasında başlamış söz dueli diqqəti cəlb edir. Koronavirusun Çinin Uhan şəhərində ortaya çıxması fürsət kimi hər iki tərəfin əlinə keçmişdir. ABŞ Prezidenti Donald Trampın yeni tip koronavirusa "Çin virusu" adını qoyması, Çinin virusun ABŞ mənşəli olmasını iddia etməsi və Vaşinqtondan izahat tələb etməsi iki ölkə arasında qarşıdurmada yeni "cəbhə" açmışdır. ABŞ-ın dünyada əsas rəqib saydığı Çinə qarşı irəli sürdüyü iddia kifayət qədər ciddidir: Pekin koronavirus haqqında qəsdən yetərli məlumat verməmiş, nəticədə virus dünyaya yayılmışdır. Öz növbəsində ABŞ KİV-i virusun Uhan şəhərindəki böyük bir laboratoriyadan çıxa bildiyini iddia edir. Ardınca Vaşinqton Çinə daha çox diqqət yetirdiyinə görə Ümumdünya Səhiyyə Təşkilatını maliyyələşdirməyi dayandırmaq qərarına gəlmişdir. Çox keçməmiş Böyük Britaniya ABŞ-la eyni səngərdə yer aldığını bəyan etmişdir: London pandemiyadan sonra Pekinə bir sıra suallar vermək niyyətindədir. Tramp açıqca bildirmişdir ki, koronavirusun yayılması ilə əlaqədar Pekinin sərgilədiyi davranış nəticələr doğura bilər. Koronavirusun mənbəyinin axtarılıb tapılması işinə Avropanın bəzi ölkələri, məsələn, Almaniya və Avstriya, həmçinin Qərb mediası da qoşulmuşdur.

Bütün bunlar koronavirus pandemiyasının səhiyyə problemindən çox ABŞ-Çin rəqabətinə tökülən benzin təəssüratı yaradır. Hadisələrin bu məcrada cərəyan edəcəyi təqdirdə beynəlxalq münasibətlərin gərginləşəcəyini gözləmək olar. Ekspertlərin fikrincə, ABŞ-Çin rəqabətinin davam etməsi ən azı beynəlxalq ticarətin azalmasına gətirib çıxaracaq ki, bu da başqa ölkələrə təsirsiz ötüşməyəcək.

Belə bir şəraitdə bəşəriyyətin koronavirus adlı qəddar düşməni işindədir: yeni-yeni canlar alır, həyatı iflic edir. Özü də COVID-19-un mövsümi xarakter daşıyacağını, yeni xəstəliyin hər il peyda olacağını istisna etməyənlər də var. Supergüclər də öz işindədir: bir-birini zəiflətmək üçün bütün vasitələrə, o cümlədən virusa əl atırlar. Bəşəriyyət yağışdan çıxıb yağmura düşə bilər.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***




# Nübar Cəlilabad kartofu

Koronavirus pandemiyasına qarşı karantin qaydalarına hər yerdə olduğu kimi, Cəlilabad rayonunda da ciddi əməl olunur. İcra strukturları, həkimlər, polis işçiləri əhalinin sağlamlığının qorunması üçün gərgin iş rejimində çalışırlar. Bu sahədə kənd təsərrüfatı işçilərinin də rolu danılmaz, gördüyü işlər isə ölkə üçün çox mühümdür. "Biz işləyirik ki, sən evdə qalıb öz sağlamlığını qoruyasan" devizi ilə çalışanlardan biri də məhz onlardır.



Hər yerdə olduğu kimi, Cəlilabadda da yaşı 65-dən çox olan adamların evdən çıxması qadağandır və belə insanlara, onların sağlamlığına böyük diqqət və qayğı göstərilir. Rayon əhalisi istəyir ki, bu bəla tezliklə çəkilib getsin, hər şey əvvəlki tək öz axarına düşsün, hər kəs öz işi ilə məşğul olsun. Artıq yurdumuza bahar gəlmişdir. Torpaq əkinçini öz qoynuna səsləyir. Kəndli də bu çətin vaxtda qayda-qanuna, yəni karantin qaydalarına əməl etməklə iş başına tələsir. Əkəcəyi torpağı hazır vəziyyətə gətirir, toxum, gübrə tədarük edir, texnikanı sazlayır.

Bu çətin vaxtda Cəlilabadda nübar kartof məhsulunu yığmağa başlamışlar. 8 min nəfərdən çox əhalini, 1874 ailə təsərrüfatını birləşdirən Muğan kənd inzibati ərazi nümayəndəliyi Cəlilabad rayonunun ən böyük təsərrüfat subyektlərindən biridir. Üç kəndin ərazisini əhatə edən nümayəndəliyin 4 min 200 hektar torpaq sahəsi mövcuddur. Bundan 2 min 700 hektarı pay torpaqlarıdır. Əhali əsasən kartof əkib-becərməklə məşğuldur. Pay torpaqlarının 1200 hektarında kartof, qalanında isə dənli-paxlalı bitkilər əkilmişdir. Kartof əkinlərinə üstünlük verilməsinin başlıca səbəbi bu sahədə məhsuldarlığın yüksək və gəlirli olması, üstəgəl kartofun bir ərzaq məhsulu kimi süfrəmizdə gərəkliyidir. Əkinin 700 hektarı sellofan örtük altında becərilmişdir ki, məhsul tez hasilə gəlsin. Məlumdur ki, bu cür nübar məhsul nisbətən baha qiymətə satılır və fermerlərə, torpaq mülkiyyətçilərinə sərfəlidir. Aprel ayının 2-dən məhsul yığımına başlanılmışdır.

Cəlilabad Rayon İcra Hakimiyyətinin məsul işçisi Rüstəm Rüstəmov və Muğan kənd inzibati ərazi nümayəndəsi Rəzzaq İsbarovla birlikdə nümayəndəliyə daxil olan Maşlıq kəndinə yollanırıq. Qıvrıla-qıvrıla gedən kəndarası şose yolu yeni müasir evlər tikilmişdir. "Maşallah olsun, yaxşı şose yolu olan abad kəndləriniz var", - deyirəm. R.Rüstəmov deyir ki, bir neçə il bundan qabaq mən də burada icra nümayəndəsi işləmişəm, gördüyünüz bu yol o vaxt çəkilib. Yolun hər iki tərəfi kartof sahələridir. Maşlıq kəndi ərazisinə daxil olarkən bir neçə yerdə kartof yığıldığını görürük. Ərazi nümayəndəsi R.İsbarov maşını yolun sağ tərəfinə çəkib saxlayır. Əlli metrlik məsafədə bir neçə qız-gəlin yerdən xışla torpağın üstünə çıxarılmış kartofu səbətlərə yığırlar. Maşından düşüb onların yanına gedirik. Ərazi nümayəndəsi: "Bura Etibar Fətullayevin sahəsidir, özü də buradadır", - deyir. Etibarın da, məhsul toplayanların da ağzında maska var. Qayda-qanuna əməl edib iki metr məsafədə dayanır, salamlaşır, hal-əhval tuturuq. "Yorulmayasınız, məhsulunuz bol olsun!" - deyirik. Etibar Fətullayev: "Xoş gəlmisiniz!" - deyir. Söhbət zamanı məlum olur ki, 0,12 hektar həyətyanı, 0,6 hektar pay torpağı var. Hər ikisinə kartof əkib. Məhsulu yığılan yer həyətyanı sahədir. Buranın hamısını sellofan örtüyə salıb. Havalar xoş keçdiyi üçün kartofu keçən ilin sonunda - dekabr ayında əkib, üstünü də sellofanla bağlayıb. Lazımi aqrotexniki qulluq aparıb, nəhayət, nübar məhsul hasilə gəlib. Aprel ayının əvvəlindən yığıma başlayıb. E. Fətullayev deyir:

- Sağ olsun dövlətimiz, hökumətimiz. Biz kənd adamlarına, torpaq mülkiyyətçilərinə yaxşı qayğı göstərir. Subsidiyamızı, gübrəmizi vaxtlı-vaxtında verir. Cənab İlham Əliyevin bizlərə girovsuz-filansız 15 min manatacan kredit verilməsi haqqında imzaladığı sərəncam hamımızın ürəyincədir. Eşitmişəm ki, Prezidentin daha bir sərəncamına əsasən bu il rayonda daha 12 subartezian quyusunun qazılması nəzərdə tutulub. Bütün bunlar bizi daha yaxşı işləməyə ruhlandırır. Məhsulumuz boldur. Gördüyünüz kimi, hər tərəf kartofdur. Ancaq bu koronavirus xəstəliyi bizim işimizə, deyəsən, ziyan vuracaq. Hələlik işlər pis deyil. Çıxardığımız məhsulu sata bilirik. Qiyməti də qaneedicidir. Əvvəllər 90 qəpiyə idi, indi 80 qəpiyə veririk. Amma hələ yığımın əvvəlidir. Bir azdan faraş məhsul toplanacaq. Hər il qonşu Biləsuvar, Masallı, Lənkəran, Lerik rayonlarından bizə köməyə gəlirdilər. İndi isə pandemiya ilə əlaqədar adamların bir rayondan digərinə gediş-gəlişinə icazə verilmir. Ancaq inanırıq ki, Allah bu bəlanı tezliklə yer üzündən çəkib aparacaq, işlərimiz öz qaydasına düşəcək. Yenə də deməliyəm, sağ olsun Prezidentimiz İlham Əliyev, bu sahədə də özünün nəyə qadir olduğunu göstərdi. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində ölkələr içində COVID-19 virusuna ən az yoluxan və ən az ölüm halları olan bizim ölkəmizdir.

Kartof yığan qızlardan Dilarə Rzayeva, Xəyalə Şahbazova, Sevinc Əsgərova, Kəmalə Quliyeva və başqaları da söhbətə qoşulub sahibkarın sözünə qüvvət verirlər. Qızlardan D. Rzayeva deyir:

- Prezidentimizlə yanaşı, bu bəlanın sovuşdurulması üçün birinci xanım Mehriban Əliyeva da çox iş görür. Allah bu bəladan xalqımızı salamat sovuşdursun. Biz də ona çalışırıq ki, ölkəmizdə kənd təsərrüfatı məhsulları azalmasın.

Beləcə fəallıq göstərir bu gün cəlilabadlılar. Məlum olur ki, yığılan kartof daxili bazardan başqa, Rusiyanın Moskva və Sankt-Peterburq bazarlarına, Ukrayna, Maldova, Pribaltika respublikalarına da göndərilir.

Rayon üzrə 2020-ci ildə 5 min 320 hektarda kartof əkilib ki, bu da keçən ildəkindən xeyli çoxdur. Mütəxəssislərin dediyinə görə, bu qədər sahədən 160 min ton məhsul gözlənilir. Bu da hər hektardan 300 sentner kartof deməkdir.

Bu gün rayonun kəndlərində qızğın iş gedir. Adamlar günlərin uzanmasından səmərəli istifadə edərək günəş çıxandan axşam düşənə qədər taxıl, üzüm, kartof, çiyələk, bostan-tərəvəz sahələrində, meyvə bağlarında becərmə aparırlar. Hər kəs çalışır ki, daha çox məhsul yetişdirsin, ölkəmizin ərzaq təhlükəsizliyi dövlət proqramına uyğun olaraq öz faydalı işini ortaya qoysun, məhsul bolluğu yaradılmasında iştirak etsin. Məhsul bol olanda isə gün-güzəran da xoş keçir, əhvali-ruhiyyə də yaxşı olur. Belədə əldə etdiyin qazancla ev də tikirsən, oğul da evləndirirsən, qız da köçürürsən və digər qayğıların da öhdəsindən üzüağ, alnıaçıq şəkildə gəlirsən.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Tərtər dövlət qayğısının mərkəzində yer alır



Cəbhə bölgəsində olan Tərtərin sosial-iqtisadi inkişafına dövlət qayğısının yeni təzahürü hər bir rayon sakinində minnətdarlıq və məmnunluq doğurur. Ölkə Prezidenti İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq rayonun 10 cəbhəyanı kəndini birləşdirən, uzunluğu 33,5 kilometr olan əhəmiyyətli Səhləbad-Əskipara-Qaraağacı-Yuxarı Qaradağlı-Qapanlı-Qaynaq-Yuxarı Qapanlı-Qazyan-Təzəkənd-Hüsənli avtomobil yoluna asfalt örtüyün salınması işlərinə başlanılmışdır.

Yerli əhəmiyyətli avtomobil yolunun torpaq və çınqıl örtüklü olması sözügedən yaşayış məntəqələri arasında nəqliyyat əlaqəsini xeyli çətinləşdirir, əhalinin rahat gediş-gəlişinə maneə yaradırdı. Sözügedən avtomobil yolu texnoloji ardıcıllığa uyğun olaraq, 2 hərəkət zolağı enində IV texniki dərəcəyə uyğun yenidən qurulur. Yolun torpaq yatağının bərpası üçün yararsız qrunt müxtəlif dərinliklərdə qazılaraq çıxarılıb, əvəzinə çınqıl qruntu tökülərək kipləşdirilib. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılıb, yolun genişləndirilməsi işləri aparılıb, yeni yol əsası inşa edilib. Yol əsasının alt layının tikintisi optimal qırmadaş, üst layının tikintisi isə qum-çınqıl qarışığı ilə aparılıb.

Avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədilə mövcud borular yeniləri ilə əvəz olunub, zəruri yerlərdə yeniləri inşa edilib.

Layihənin sonuncu mərhələsində yolboyu zəruri yerlərdə avtobus dayanacaqları, yol nişanı, kilometr göstəricisi və siqnal dirəkləri quraşdırılacaq, hərəkətin normal təşkili üçün üfüqi nişanlama xətləri çəkiləcəkdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



## Yeni meyvə bağları salınıb



Şərur rayonunda növbəti ağacəkmə kampaniyası çərçivəsində Qarxun, Yuxarı Daşarx kəndlərində, Kürkənddə və digər yaşayış məntəqələrində 10 hektara yaxın yeni meyvə bağları salınıb.

AZƏRTAC xəbər verir ki, Kürkənddəki 1 hektarlıq meyvə bağına 400 nektarın ağacı əkilib. Yuxarı Daşarx kəndi ərazisində 1,6 hektara 630, Qarxun kəndinə 0,4 hektara meyvə tingi əkilib, Aşağı Daşarx kəndində ötən il salınmış "Gənclər bağı"nda bərpa məqsədilə 80 tingdən istifadə olunub.

Şərur şəhərinin parklarına və yol kənarlarına yaşıllaşdırma məqsədilə xeyli meyvə və bəzək tingləri, dibçəklərdə yetişdirilmiş əlvan çiçək, həmişəbahar və qızılgül kolları əkilib.

## İribuynuzlu mal-qaranın 48,3 faizini inək və camışlar təşkil edir



Aprelin 1-i vəziyyətinə ölkə üzrə 8 milyon 386 min baş qoyun və keçi, 2 milyon 658,3 min baş iribuynuzlu mal-qara və 5583 baş donuz mövcud olub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iribuynuzlu mal-qaranın 48,3 faizini inək və camışlar təşkil edir.

## Üç ayda diri çəkidə 19,1 min ton quş əti istehsal edilib



Cari ilin yanvar-mart aylarında quşçuluq müəssisələrində diri çəkidə 19,1 min ton (keçən il 18,4 min ton) quş əti və 214,8 milyon ədəd (keçən il 176,5 milyon ədəd) yumurta istehsal olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə bu müəssisələr üzrə cəmi quşların sayı 13 milyon 311,7 min baş olub, hər yumurtlayan toyuqdan orta hesabla 50 ədəd yumurta alınıb.

**Mütəxəssis sözü**

# Ekoloji təmiz məhsul - *insanlar üçün sağlamlıq, dövlət üçün gəlir*

2019-cu ilin statistikasına görə, Azərbaycanda əhalinin təxminən 47 faizi kənd yerlərində yaşayır və məşğulluğun 36 faizi kənd təsərrüfatının hesabına təmin edilir. Məhsuldar torpaqların, su bolluğunun və 9 iqlim qurşağının olması güclü kənd təsərrüfatı sektoru üçün gözəl zəmin yaratmasına baxmayaraq, ölkəmiz bir sıra qida məhsullarının idxalçısıdır. Dövlətimizin aqrar siyasətində əsas diqqət əlavə dəyərli bitkiçilik (alma, nar, zeytun və zeytun yağı, fındıq, kələm, noxud) və heyvandarlıq (süd, qoyun və mal əti) məhsullarına yönəldilmişdir. Məhsulların ixracı daha çox qonşu ölkələrin bazarlarına yönəlsə də, bəzi gec xarab olan məhsullar daha uzaq yerlərə ixrac edilir.

Azərbaycanda orqanik məhsulların istehsalı və ixracı üçün geniş imkanlar var. Hətta müəyyən qiymət artımı ilə daha mürəkkəb bazarlara çıxmaq imkanları da mövcuddur. Bunun üçün ölkə həm uyğun ekoloji şəraitə, həm də təbii sərvətlərə malikdir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji yol xəritəsi"nin 4.2-ci bəndində deyilir: "Ölkədə tətbiq edilən ənənəvi istehsal metodlarına əlavə olaraq, nəzərdə tutulmuş əsas bitkiçilik məhsullarının orqanik təsərrüfat metodları əsasında yetişdirilməsi dövlətin tənzimləmə standartları əsasında təşviq ediləcəkdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində yaranan istehsalçıların dəyər zənciri boyunca yüksək dəyər gətirən sahələrdə fəal iştirakı təmin ediləcəkdir".

Ölkəmizdə ekoloji təmiz məhsul istehsalı ilə bağlı müvafiq qanunvericilik aktlarının olması müsbət haldır. Lakin bu hüquqi bazadan əhatəli istifadə olunmur. Orqanik məhsullar istehsalı ilə bağlı dolğun məlumat bazası formalaşmır. Kənd təsərrüfatı sektoru üzrə əsas statistik məlumatlar ümumi məlumatlardır.

"Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları haqqında" Nazirlər Kabinetinin 30 avqust 2010-cu il tarixli qərarında Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi və AMEA tərəfindən icra ediləcək vəzifələr təyin edilmişdir. Bu qurumların səlahiyyətləri daxilində orqanik kənd təsərrüfatının hüquqi və fiziki inkişafını dəstəkləyən prioritet vəzifələr göstərilmişdir. Bunlar ətraf mühitin və torpaqların analizi vasitəsilə münasib sahələrin müəyyən edilməsi və prinsiplərin təyin edilməsi, torpaqların çirklənməsinin qarşısının alınması və münbitliyin yaxşılaşdırılması, elmi nəticələr əsasında orqanik kənd təsərrüfatına münasib olan əkin dövriyyəsinin və idarəetmə proqramlarının hazırlanmasıdır. Buraya eləcə də ziyanvericilərin, alaqların və xəstəliklərin idarə edilməsi üçün bioloji, mexaniki və aqrotexniki üsulların, bitki qalıqları və heyvan tullantılarının köməyi ilə torpağın münbitliyini artırmaq üçün texnologiyaların hazırlanması, orqanik məhsulların istehsalı, saxlanması və emalı üçün texnologiyaların təkmilləşdirilməsi daxildir.

Sənəddə həmçinin bioloji fəaliyyətlər vasitəsi ilə torpaq və su ehtiyatlarının qorunması üçün qaydaların işlənib hazırlanması, orqanik gübrələrin və kompostların hazırlanması üçün istifadə olunan texnologiyalara dair təlimlərin təşkil edilməsi, orqanik quşçuluq və akvakultura istehsalı üçün texnologiyaların təşkil olunması və icra edilməsi, habelə digər tədbirlər nəzərdə tutulmuşdur.

Bu qaydaların təsdiqlənməsindən 10 ilə yaxın vaxt keçməsinə baxmayaraq, sözügedən sahədə çox məhdud sayda fəaliyyətlərin mövcud olduğunu müşahidə edirik.

Orqanik məhsul sadəcə kənd təsərrüfatı məhsulu deyildir, bu eyni zamanda emal edilmiş məhsullardan da ibarətdir.

Bir sıra ölkələrin təcrübəsi göstərir ki, xüsusi dəstək və subsidiyalar hesabına bir çox fermerlər orqanik kənd təsərrüfatına keçmək və bu sahədə istehsalı davam etdirmək imkanı qazanıblar. Azərbaycanda yanacaq və kimyəvi gübrələr üçün subsidiyalar verilsə də, biohumus alınması ilə bağlı sonradan göstərilən dəstəyi nəzərə almasaq, orqanik məhsulların istehsalı, yaxud gətirilməsi üçün xüsusi subsidiya mövcud deyil. Bu səbəbdən orqanik məhsulların istehsalını artırmaq üçün xüsusi subsidiyaların verilməsi zərurətdir. İcra edilməli olan digər bir iş isə fermerlərə təlimlərin keçirilməsi ilə bağlıdır. Fikrimizcə, hökumətin qeyri-hökumət təşkilatları ilə birlikdə hər bir rayonda orqanik məhsullar üzrə ekspert qrupları yaratması faydalı olar. "Ekoloji təmiz məhsul istehsalçıları və ixracatçıları" İctimai Birliyi bu sahədə böyük təcrübəyə malikdir və dövlət qurumları ilə daha sıx əməkdaşlıq etməyə hazırdır.

Azərbaycanda istehsal edilən və orqanik kimi sertifikatlaşdırılmış əsas məhsullar qızılgül yağı, nar, xurma, fındıq və yabanı toplanmış meyvələr, giləmeyvələr, habelə müalicəvi və ətirli bitkilərdir. Yeganə orqanik heyvandarlıq məhsulu isə baldır. Ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının dadı və ətri misilsizdir. Biz bu potensialdan istifadə edərək orqanik kənd təsərrüfatını dayanıqlı bir sahəyə, qeyri-neft gəlirlərinin əhəmiyyətli mənbəyinə çevirməliyik.

Hazırda ölkədə yabanı məhsulların yığımı ilə yanaşı, dənli bitkilərin, mülayim, subtropik və tropik iqlim meyvələrinin, üzümün, zeytunun, yağlı və zülallı bitkilərin, tərəvəzin və balın "orqanik" kimi sertifikatlaşdırılmış istehsalı mövcuddur. Azərbaycanda orqanik məhsul istehsalçıları ilk olaraq vəhşi təbiət guşələrinin orqanik kimi sertifikatlaşdırılması və orada əsasən ixrac üçün yabanı meyvə və giləmeyvələrin, müalicəvi və ətirli bitkilərin, qoz-fındığın yığımı ilə orqanik istehsal təşəbbüsünə başlayıblar.

Ölkəmizdə sertifikasiyalı orqanik məhsullar istehsal edilir, əsasən Avropa ölkələrinə və ABŞ-a satılır. Orqanik nar məhsulları, meyvə şirələri, müalicəvi və ətirli bitkilər, fındıq əsasən ixrac bazarlarına yönəldilir. Yerli bazarı orqanik məhsullarla təchiz etmək üçün yumurta, süd, ət və onlardan alınan digər məhsullar daxil olmaqla geniş çeşiddə ərzaq istehsal edilməlidir. Buğda, meyvə və tərəvəz kimi əsas ərzaq məhsullarına prioritet sahə kimi diqqət yetirilməlidir.

Bütün dünyada orqanik kənd təsərrüfatı torpaqları kimi tanınan torpaqlarda Azərbaycanın payı 0,05, Asiya qitəsinin isə 0,216 faiz təşkil edir. Orqanik torpaqlara keçid müddəti təxminən 2-3 il çəkir. Bunu nəzərə alaraq bir çox dənli bitkilərdə və meyvə-tərəvəzdə ölkənin artan potensialını proqnozlaşdırmaq olar. Müvafiq statistik məlumatlar olmasa da, müəyyən edilmişdir ki, Azərbaycanın orqanik heyvandarlıqda, xüsusilə iri və xırda buynuzlu heyvandarlıqda, eləcə də quşçuluq və arıçılıqda böyük potensialı var.

Ekspertlər Azərbaycanda istehsal olunan ətin unikal dadını vurğulayır və qeyd edirlər ki, bunun səbəbi ölkədəki otlaq və örüşlərin bir çox ot növlərindən ibarət olması, onların kimyəvi maddələrlə, sənaye tullantıları ilə çirklənməyə məruz qalmamasıdır. Bundan əlavə, südçülük və arıçılıq məhsulları, habelə yabanı bitkilərdə Azərbaycanın təbii potensialı ümidvericidir. Azərbaycan meşələrlə və təbii bitki örtüyü ilə zəngin ölkədir. Odur ki, ərazilərimizdə qarpız, bal, nar, şabalıd, fındıq, xurma, qoz, kartof yetişdirilir və bunlar heç bir süni müdaxilələr görmədən istehsal oluna bilir. Bu sahələrin bəzilərinin yüksək məhsuldarlığına görə seçilərək orqanik torpaqlara keçirilib sertifikasiya edilməsi mümkündür.

Orqanik məhsullara olan tələbat o zaman yüksəlir ki, istehlakçıların istəkləri onların sağlamlıq və ətraf mühit haqqında məlumatlılığı ilə paralel şəkildə inkişaf etmiş olur. Bütün dünyada istehlakçıların orqanik ərzaq alması daha çox sağlamlıq məsələləri ilə bağlıdır. Bu baxımdan uşaqlı ailələr, hamilə qadınlar və sağlamlıqla bağlı problemləri olan yetkin şəxslər orqanik məhsulların birnömrəli istehlakçılarıdır.

İnsanların təhsil və gəlir səviyyəsi artdıqca, onların orqanik məhsullara olan marağı da artır. Bunu nəzərə alaraq yaxın gələcəkdə xüsusilə orqanik qida məhsullarına olan tələbatın artacağı gözlənilir. Son günlər dünyada baş verən pandemiya bir daha sübut edir ki, sağlam, təbii və orqanik qidalanma sahəsinin inkişafı sadəcə olaraq iqtisadi deyil, eyni zamanda bir siyasi zərurətdir.

Hazırda Azərbaycanda orqanik məhsullar əsasən əcnəbilər, hotel şəbəkələri, eləcə də yüksək gəlirli və təhsilli ailələr tərəfindən istehlak olunur. Orqanik məhsullar ənənəvi məhsullarla müqayisədə kifayət qədər bahadır. Bu bazarı genişləndirmək və məhsulları aşağı gəlirli istehlakçılar üçün də əlçatan etmək məqsədilə əlavə rüsumlar aradan qaldırılmalı və qiymətlər mümkün qədər aşağı salınmalıdır. Bir sıra supermarketlərdə orqanik məhsullar ümumiyyətlə yoxdur. Digərlərində isə bəzi idxal olunmuş orqanik məhsullar satılsa da, bunlar da ayrıca rəflərdə deyil, qeyri-orqanik mallarla qarışıq şəkildə təklif olunur. Azərbaycanlı istehlakçıların çoxu "orqanik məhsullar" anlayışı ilə tanışdır və bu məhsulların təbii yolla istehsal edildiyinə, tam sağlam olduğuna inanırlar. Bu məhsullar sertifikatsız olsa da, istehsalçı, emal edən, ticarətçi və vasitəçilər arasında qarşılıqlı etimad mövcuddur.

***Emin ƏLİYEV,***
***"Ekoloji Təmiz Məhsul İstehsalçıları və İxracatçıları" İctimai Birliyinin sədri***

### "Şirvan Sığorta və Təkrar Sığorta Brokeri" MMC-nin 2019-cu il dekabrın 31-nə MÜHASİBAT BALANSI (rüblük və illik)

*manatla*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | | |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | | |
| Daşınmaz əmlaka investisiyalar | | |
| Qeyri-maddi aktivlər | 11 000,00 | |
| Taxirə salınmış vergi aktivləri | | |
| Uzunmüddətli debitor borcları | | |
| Uzunmüddətli maliyyə aktivləri: | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| İştrak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | |
| Sair aktivlər | | |
| *Cəmi uzunmüddətli aktivlər* | 11 000,00 | 0,00 |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Ehtiyatlar | | |
| Debitor borcları: | 861,06 | 1 367,69 |
| birbaşa sığorta üzrə | | |
| təkrarsığorta əməliyyatları üzrə : | | |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | 260,49 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | | 1 000,00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 861,06 | 107,20 |
| Pul vəsaitləri və onların ekvivalentləri: | 591,89 | 694,48 |
| kassa | | |
| hesablaşma hesabı | 591,89 | 694,48 |
| valyuta hesabı | | |
| depozit hesablar | | |
| sair pul vəsaitləri | | |
| Qısamüddətli maliyyə aktivləri: | 0,00 | 0,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 0,00 | |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı: | | |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| Sair qısamüddətli aktivlər: | | |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| Sair aktivlər | | |
| *Cəmi qısamüddətli aktivlər* | 1 452,95 | 2 062,17 |
| CƏMİ AKTİVLƏR | 12 452,95 | 2 062,17 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 1 000,00 | 1 000,00 |
| Emissiya gəliri | | |
| Geri alınmış kapital (səhmlər) | | |
| Kapital ehtiyatları: | 0,00 | 0,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -35 538,64 | -47 987,04 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -35538,64 | -12 448,40 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | -35538,64 |
| Elan edilmiş dividendlər | | |
| *Cəmi kapital* | -34 538,64 | -46 987,04 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Sığorta ehtiyatları: | | |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| Qarşısıalınma tədbirləri fondu | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Taxirəsalınmış vergi öhdəlikləri | | |
| Kreditor borcları : | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| Sair uzunmüddətli öhdəliklər: | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər: | | |
| təkrarsığortaçı üzrə | | |
| təkrarsığortalı üzrə | | |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | |
| Sair öhdəliklər | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | | 0,00 |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | |
| Kreditor borcları: | 7 473,89 | 10 774,51 |
| əməyin ödənilməsi üzrə | 7 473,89 | 9 789,90 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | 206,60 |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | 778,01 |
| Sair qısamüddətli öhdəliklər: | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | 29 842,00 | 38 000,00 |
| Sair öhdəliklər | 9 675,70 | 274,70 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 46 991,59 | 49 049,21 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 46 991,59 | 49 049,21 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 12 452,95 | 2 062,17 |

### "ŞİRVAN SIĞORTA VƏ TƏKRAR SIĞORTA BROKERİ" MMC MƏNFƏƏT və ZƏRƏR HAQQINDA HESABAT (rüblük və illik)

Hesabat dövrü İllik dəqiqləşmiş 2019-cu il

*ilin əvvəlindən artan yekunla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| Əsas əməliyyat gəliri: | 0,00 |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi) | |
| İnvestisiya gəlirləri üzrə | |
| Subroqasiya gəlirləri | |
| Sair gəlirlər | 16 984,91 |
| **CƏMİ GƏLİRLƏR** | **16 984,91** |
| **Xərclər** | |
| Əsas əməliyyat xərcləri: | 0,00 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| İşlərin aparılması xərcləri | 29 433,31 |
| Sair xərclər | |
| **CƏMİ XƏRCLƏR** | **29 433,31** |
| Maliyyə mənfəəti (zərəri) | -12 448,40 |
| Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi | |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | -12 448,40 |
| Mənfəət vergisi | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -12 448,40 |

## B İ L D İ R İ Ş

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2020-ci il üçün xərclər smetasında "Nəqliyyat vasitələrinin cari təmir xərcləri" (222120) maddəsinə ayrılmış vəsaitlər hesabına kotirovka sorğusu elan edir**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.04.2020-ci il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, S.Əsgərova küç.85**
**Telefon: (012) 594-17-26**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı satınalmalar üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

LOT 1 - Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;

LOT 2 - Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;

LOT 3 - Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin satın alınması;

LOT 4 - Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və Bakı şəhəri Ə.Əliyev küçəsi 10 ünvanında yerləşən inzibati binasında təmir-bərpa işlərinin satın alınması;

LOT 5 - Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün korporativ stil mallarının satın alınması.

Tender proseduru 21 may 2020-ci il saat 15:00-da Dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Asan Ödəniş Sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına hər bir iştirak etdiyi LOT üzrə 50 (əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 09 iyul 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını 21 may 2020-ci il saat 14:00-a qədər, digər tələb olunan sənədləri isə ən geci 12 may 2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı:
LOT 1: 01.10.2020-ci il tarixdən;
LOT 3: 01.07.2020-ci il tarixdən;
LOT 2, LOT 4 və LOT 5: satınalma müqaviləsi imzalandığı gündən.

Xidmətin göstərilməsi, işlərin görülməsi və malların təqdim edilməsi müddəti:
LOT 1, LOT 2, LOT 3 və LOT 5: dövri olaraq 1 il müddətində;
LOT 4: satınalma müqaviləsi imzalandığı gündən 90 (doxsan) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları:
LOT 1, LOT 2, LOT 3 və LOT 4: qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza);
LOT 5: qiymət və texniki amil (iş təcrübəsi və korporativ müştərilərin sayı).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən "İçərişəhər" stansiyasında çillər soyutma sisteminin quraşdırılması işlərinin satın alınmasına dair 16.04.2020-ci il tarixdə keçirilən açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Mövcud vəziyyətlə əlaqədar olaraq "Azərbaycan" qəzetinin 29 mart - 7 aprel 2020-ci il tarixli buraxılışında DOST Agentliyi tərəfindən miniven tipli avtonəqliyyat vasitələrinin satın alınmasına dair elan edilmiş elektron açıq tender proseduru üzrə tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 27 aprel 2020-ci il saat 15:00-a, tender təkliflərinin və təklif təminatının qəbulu vaxtı 05 may 2020-ci il saat 15:00-a, təkliflərin açılışı 06 may 2020-ci il saat 15:00-a dəyişdirilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Mövcud vəziyyətlə əlaqədar olaraq "Azərbaycan" qəzetinin 29 mart - 7 aprel 2020-ci il tarixli buraxılışında DOST Agentliyi tərəfindən pikap tipli avtonəqliyyat vasitəsinin satın alınmasına dair elan edilmiş elektron açıq tender proseduru üzrə tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 30 aprel 2020-ci il saat 10:00-a, tender təkliflərinin və təklif təminatının qəbulu vaxtı 08 may 2020-ci il saat 10:00-a, təkliflərin açılışı 12 may 2020-ci il saat 10:00-a dəyişdirilmişdir.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## Braziliya Prezidenti karantin əleyhinə mitinqə qoşuldu



Braziliya Prezidenti Jair Bolsonaru paytaxtda koronavirus üzündən tətbiq olunmuş karantin məhdudiyyətləri əleyhinə nümayişdə iştirak etmişdir. Aksiyaya 600 nəfərə yaxın adam qatılmışdı.

Nümayişçilər parlamentin bağlanmasını və ordunun Bolsonarunun tərəfində olmasını tələb etmişlər. Prezident mitinqdə çıxış etmiş, öskürdüyündən bir neçə dəfə nitqinə ara verməli olmuşdur.

Ölkə parlamenti və regional liderlər koronavirusun yayılması ilə əlaqədar vətəndaşların bayıra çıxmasını qadağan etmişlər. Bolsonaru bu tədbirləri tənqid edib virusu adi qrip, koronavirusla mübarizəni isə isteriya kimi qiymətləndirmişdir. Prezident bundan əvvəl ölkənin Səhiyyə naziri Luis Enrike Mandettanı sosial məsafənin tərəfdarı olduğuna görə vəzifəsindən azad etmişdir. Bolsonaru aprelin 17-də qonşu dövlətlərlə sərhədləri açmaq təklifi ilə çıxış etmişdi.

Hazırda Braziliya koronavirusa yoluxanların sayına görə Latın Amerikasında birinci yeri tutur. Ölkədə 38 min nəfərdən çox adam COVID-19-a yoluxmuş, təxminən 2,5 min nəfər vəfat etmişdir.

## Paris suyunda koronavirus tapıldı



Fransanın paytaxtı Parisi texniki su ilə təmin edən boru kəməri sistemində koronavirusun izləri aşkarlanmışdır. Bu barədə "Le Monde" qəzeti xəbər verir.

Boru kəməri hələ XIX əsrdə inşa olunmuşdur. Kəmərin tamamilə təmizlənməyən suyundan küçələri yumaq və fontanlar üçün istifadə olunur. Bələdiyyə hər ehtimala qarşı regional səhiyyə orqanlarına müraciət etmişdir, çünki su nümunəsi götürülmüş 27 nöqtənin 4-də, kiçik də olsa, virus izləri aşkarlanmışdır. Həmin sudan istifadə dərhal dayandırılmışdır.

Şəhər rəhbərliyi əmin etmişdir ki, parislilərin narahat olması üçün heç bir əsas yoxdur: paytaxtı içməli su ilə təmin edən borular təmiz çıxmışdır.

## İspanlar iqtidarı söz azadlığını məhdudlaşdırmaq cəhdində ittiham edirlər



İspaniyada Mülki Qvardiyanın (jandarma) qərargah rəisi, general-leytenant Xose Manuel Santyaqonun açıqlamaları qalmaqala səbəb olmuşdur. General bildirmişdi ki, onun təmsil etdiyi təşkilat koronavirusdan qaynaqlanan böhranla mübarizədə hökumətə yönəlik tənqidi minimuma endirməyə çalışır.

İctimaiyyət bu bəyanatı güc strukturlarının hüquqi dövlətin əsas prinsiplərini pozaraq söz azadlığını məhdudlaşdırmaq cəhdi kimi qəbul etmişdir. Müxalifətin lideri Pablo Kasado Daxili İşlər naziri Fernando Qrande Marlyaskadan jandarmaya belə bir əmri verənin kimliyini açıqlamağı tələb etmişdir. Başqa bir populyar deputat Santyaqo Abaskal iqtidarı demokratiyaya qəsd etməkdə günahlandırmış, hakim hökumətin istefasını tələb etmişdir.

Nazir isə iddia etmişdir ki, general fikrini düzgün ifadə edə bilməmişdir: guya Mülki Qvardiyanın qərargah rəisi yalnız koronavirus barədə təlaş əhvali-ruhiyyəsi yaradan yalan xəbərlərlə mübarizəni nəzərdə tuturmuş. Lakin bir izahat ictimaiyyəti qane etməmişdir.

## Kanadada diş texniki 16 nəfəri güllələdi



Kanadanın cənub-şərqində, Yeni Şotlandiya vilayətində bir kişi atəş açıb azı 16 nəfəri, o cümlədən polis əməkdaşını öldürmüşdür. Cinayətkarın özü də ölmüşdür.

Avtomobildə hərəkət edən cinayətkarın şəxsiyyəti müəyyənləşdirilmişdir: diş texniki Qabriel Vortmanın 51 yaşı vardı, polis formasına bənzər paltar geymişdi. Ölənlərin cəsədləri vilayətin bir neçə yerində, o cümlədən yaşayış binalarının birində tapılmışdır. Cinayətkarın motivləri barədə məlumat verilmir, o, "xaotik şəkildə fəaliyyət göstərirmiş". Ölənlər Vortmanın tanımadığı şəxslər idi.

Həlak olanların və zərərçəkənlərin dəqiq sayı hələ məlum deyil. Kanadanın Baş Naziri Castin Trüdo hadisəni dəhşətli vəziyyət kimi qiymətləndirmiş, ölənlərin ailələrinə başsağlığı vermiş və polisə işinə görə təşəkkür etmişdir.

## 120 min məcburi köçkün İdlibə qayıtdı



Ötən ayın 6-da İdlib gərginliyi azaltma zonasında atəşin dayandırılması haqqında Türkiyə-Rusiya sazişi qüvvəyə minəndən bəri Suriyanın şimal-qərbindəki yaşayış məntəqələrinin 119583 sakini yurd-yuvasına qayıtmışdır.

Suriya qeyri-hökumət təşkilatlarından birinin rəhbəri Məhəmməd Həllac "Anadolu" agentliyinə məlumat vermişdir ki, ümumilikdə 21,5 min suriyalı ailə atəşkəs elan olunandan sonra gərginliyi azaltma zonasındakı evlərinə qayıtmışdır. Amma yüz minlərlə adam Bəşşar Əsəd rejiminə etibar etmədiyindən Türkiyə sərhədinin yaxınlığındakı qaçqın düşərgələrində qalmağı üstün tutmuşdur.

Həllac qeyri-hökumət təşkilatlarını yurdlarına dönən suriyalılara kömək etməyə, mülki şəxsləri isə ehtiyatlı olmağa çağırmışdır, çünki məcburi köçkünlərin qayıtdığı ərazilərdə mina ola bilər. Onun fikrincə, atəşkəs rejimi davam etdikcə ev-eşiyinə qayıdanların sayı artacaq.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Neft Kəmərləri İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi idarənin rəisi Vasif Əmirova atası, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent

**RƏŞADƏT VASİF OĞLU ƏMİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7375
Sifariş 931
Qiyməti 40 qəpik